QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 143 (5863) **8 avqust** 2019-cu il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qəpik**

# Bakıda həyata keçirilən abadlıq-quruculuq işlərinin miqyası genişlənir

*Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Pirallahı rayonunda olublar*



Səh 2

6

Ermənistan KİV-ləri: Zabitlər əsgərlərə zorakılıq edir!



7

Ermənistanda korrupsiya ilə mübarizə vədləri boşa çıxıb



16

Azərbaycanda bayram namazı avqustun 12-də qılınacaq



# Bakıda həyata keçirilən abadlıq-quruculuq işlərinin miqyası genişlənir

## *Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Pirallahı rayonunda olublar*

***Avqustun 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Pirallahı rayonunda olublar. AZƏRTAC xəbər verir ki, Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanov Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya görülən işlər və rayonun perspektiv inkişafı ilə bağlı layihələr barədə məlumat verdi.***

Sonra dövlətimizin başçısı və birinci xanım Pirallahı Rayon İcra Hakimiyyəti üçün inşa edilən binada yaradılan şəraitlə tanış oldular.

Prezident İlham Əliyevin "Bakı şəhərinin Pirallahı rayonunda tikinti-quruculuq işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2017-ci ildə imzaladığı Sərəncama əsasən rayon icra hakimiyyəti üçün dördmərtəbəli bina inşa olunub. Binada operativ-idarəetmə, vətəndaşların qəbulu, iş otaqları, akt və konfrans zalları, kitabxana və digər zəruri otaqlar var. Bina bütün lazımi avadanlıq və sistemlərlə təchiz edilib. Otaqların hamısı müasir tələblər səviyyəsində qurulub.

Yeni binada yaradılan şərait ölkədə dövlət idarəçiliyi sisteminin təkmilləşdirilməsinin daim diqqət mərkəzində olduğunu bir daha təsdiqləyir. Bundan başqa, müasir memarlıq üslubunda inşa olunan bu bina rayonun görkəminə də xüsusi gözəllik verir. Rayon icra hakimiyyəti üçün inşa olunan binanın ətrafında genişmiqyaslı abadlıq-quruculuq işləri görülüb, fəvvarə quraşdırılıb, işıqlandırma sistemi yaradılıb, mindən çox ağac və gül-çiçək əkilib, yaşıllıq zolağı salınıb.



## "İş yerlərinin yaradılması daim gündəlikdə duran məsələlərdən biridir"






Avqustun 7-də Pirallahı rayonunda yeni inşa olunmuş Gənclər Mərkəzi istifadəyə verilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərkəzin açılışında iştirak ediblər. Dövlətimizin başçısı İlham Əliyev binanın rəmzi açılışını bildirən lenti kəsdi.

Gənclər Mərkəzinin üçmərtəbəli binasında Heydər Əliyev muzeyi fəaliyyət göstərir. Burada Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən eksponatlar nümayiş olunur. Mərkəzdə, eyni zamanda, akt zalı, elektron oxu və nikah zalları, robopark, rəsm, keramika-heykəltəraşlıq, fotostudiya, "bacarıqlı əllər" dərnəkləri və sərgi salonu yaradılıb. Burada gənclərin asudə vaxtının səmərəli təşkili, onların müxtəlif peşə və sənətə yiyələnməsi məsələsinə xüsusi önəm veriləcək. Azərbaycanda gənclər siyasətinin formalaşdırılması, yeni inkişaf mərhələsinə qədəm qoyması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ölkəmizdə gənclər siyasəti 2003-cü ildən sonra yeni müstəvidə davam etdirilir. Dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilməkdə olan "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı bu baxımdan çox mühüm rol oynayır.

Dünən YAP Pirallahı Rayon Təşkilatının yeni inzibati binasının açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər. Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi. Yeni Azərbaycan Partiyası Pirallahı Rayon Təşkilatı üçün ikimərtəbəli müasir bina inşa olunub. Burada partiya təmsilçilərinin səmərəli fəaliyyəti üçün hərtərəfli imkanlar yaradılıb.

Yeni Azərbaycan Partiyası ölkəmizin bugünkü sürətli inkişafında, respublikanın beynəlxalq nüfuzunun artmasında və bütün sahələrdə əldə olunan tərəqqidə xüsusi rol oynayır. Azərbaycanın əsas və aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyası bütün bu uğurların qazanılmasında yaxından iştirak etməklə xalqın partiyası olduğunu aydın nümayiş etdirir. Bu da ulu öndər Heydər Əliyevin "Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır" fikrinin real həyatda təsdiqini tapdığını bir daha göstərir. Partiyanın uğurlu fəaliyyətində onun rayon təşkilatlarının da rolu böyükdür. Yeni Azərbaycan Partiyasının rayon təşkilatları üçün bütün bölgələrdə inşa olunan inzibati binalar müasirliyi ilə seçilir, həmçinin şəhər və rayonların gözəlliyinə əlavə rəng qatır.

Avqustun 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Pirallahı rayonunda yeni inşa olunmuş "Mirvari" Park Kompleksində yaradılan şəraitlə tanış oldublar. Beş hektar sahəsi olan kompleksdə uşaqlar üçün mini futbol və iki oyun meydançası, müxtəlif attraksionlar, yelləncəklər, idman qurğuları, söhbətgahlar və fəvvarə quraşdırılıb. Müasir işıqlandırma sistemi ilə təchiz olunan bu istirahət guşəsində, eyni zamanda, müxtəlif tədbirlərin keçirilməsi üçün səhnə də inşa edilib.

Ardı Səh. 3

# Bakıda həyata keçirilən abadlıq-quruculuq işlərinin miqyası genişlənir

## *Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Pirallahı rayonunda olublar*








Əvvəli Səh. 2

Dövlətimizin başçısı və birinci xanım parkda Qarabağ müharibəsi əlillərinin "ASAN xidmət"in "Ailə Biznesinə Asan Dəstək" proqramı çərçivəsində nümayiş etdirilən rəsm əsərlərindən və müxtəlif səpkidə dekorativ əl işlərindən ibarət sərgiyə baxdılar.

İstirahət məkanında "Ahılların Günərzi Mərkəzi" də fəaliyyət göstərir. Mərkəz Prezident İlham Əliyevin "Xüsusi qayğıya ehtiyacı olan uşaqlara və digər şəxslərə göstərilən sosial xidmətlərin genişləndirilməsi üçün əlavə tədbirlər haqqında" 2019-cu ilin iyun ayında imzaladığı Sərəncama əsasən yaradılıb. Burada hər gün sosial yardıma ehtiyacı olan 50 ahıla növbəlilik əsasında pulsuz xidmət göstəriləcək.

Son illərdə Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq Bakıda həyata keçirilən abadlıq-quruculuq işlərinin miqyası daha da genişlənib. Bu tədbirlərin tərkib hissəsi olaraq yeni parkların yaradılması, mövcud istirahət məkanlarının



isə müasir səviyyədə yenidən qurulması geniş vüsət alıb. Bu işlər paytaxt sakinlərinin və ölkəmizə gələn turistlərin istirahətinin hərtərəfli təşkili baxımından böyük rol oynayır. Bütün bunlar, eyni zamanda, Bakını dünyanın ən gözəl şəhərlərindən birinə çevirib. Bunu istər paytaxt sakinləri, istərsə də şəhərimizin qonaqları dəfələrlə vurğulayırlar. Əhaliyə xidmət göstərən bu kimi müasir layihələrin icrası son illərdə dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasətin real nəticəsidir.

Sonra dövlətimizin başçısı və birinci xanım "Mirvari" Park Kompleksində rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdülər. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ictimaiyyət nümayəndələrini salamladılar.

Sakinlər: Xoş gəlmisiniz cənab Prezident, hörmətli Mehriban xanım. Səfa gətirmisiniz, həmişə Siz gələsiniz.

Prezident İlham Əliyev: Sağ olun.

Mehriban Əliyeva: Xoş gördük, sizi görməyimizə çox şadıq, çox sağ olun.

Sakin: Cənab Prezident, biz Pirallahı rayonunun ağsaqqalları Sizə, Mehriban xanıma bir daha xoş gəlmisiniz deyirik. Bu gün Pirallahı qəsəbəsi, Pirallahı rayonu demək olar ki, Bakı şəhərinin ən qabaqcıl rayonlarından biridir. Görülmüş bütün bu işlərə görə Sizə dərin minnətdarlığımızı bildiririk. Bütün bu abadlıq işləri Sizin sayənizdə görülüb.

Sakin: Sizə, Mehriban xanıma möhkəm cansağlığı arzulayırıq.

Prezident İlham Əliyev: Sağ olun.

Sakin: Bir neçə gün bundan əvvəl Siz qaçqınlarla görüşə gəlmişdiniz. Bu gün də, cənab Prezident, Pirallahıda bizimlə görüşürsünüz. Sizə dərin minnətdarlığımızı bildiririk. Burada böyük abadlıq işləri görülür, qəzalı binalar çoxdur, 400-ə yaxındır, indi Sizin sayənizdə tikinti gedir. Allah Sizi qorusun.

Prezident İlham Əliyev: Sağ olun. Rayonun inkişafına diqqət göstərilir. Son illərdə böyük quruculuq-abadlıq işləri aparılmışdır. Rayonun siması dəyişib və bu gün dediyiniz kimi, Bakının ən qabaqcıl rayonlarından biridir. Burada infrastruktur layihələri icra edilir, içməli su layihəsi iki il bundan əvvəl öz həllini tapdı, qazlaşma ilə bağlı bütün məsələlər öz həllini tapdı.

Ardı Səh. 4

# Bakıda həyata keçirilən abadlıq-quruculuq işlərinin miqyası genişlənir

## *Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Pirallahı rayonunda olublar*

**Əvvəli Səh. 3**

İş yerləri yaradılır, burada dərman zavodu tikilir, şpris zavodunun açılışı bir qədər bundan əvvəl reallığa çevrildi. Yəni, bu onu göstərir ki, biz həm iş yerlərinin yaradılması istiqamətində uğurlara nail oluruq, həm də abadlıq işləri aparılır. Məcburi köçkünlər üçün yeni evlər istifadəyə verilib, 300-dən çox ailə orada məskunlaşır. İnzibati binalar, yollar tikilir. Yəni, rayonun hərtərəfli inkişafı üçün böyük işlər görülür və bundan sonra da görüləcəkdir. İş yerlərinin yaradılması da daim gündəlikdə duran məsələlərdən biridir və balıqyetişdirmə zavodunun fəaliyyətə başlaması da, hesab edirəm ki, çox önəmli hadisədir. Əlbəttə, ictimai zonalar, parklar salınır, vətəndaşlar üçün, istirahət etmək üçün gözəl imkanlar var.

Sakinlər: Çox sağ olun, var olun.

Veteran idmançı: Mən də bir veteran idmançı, dünya çempionu kimi idmançılar adından Mehriban xanıma böyük təşəkkür edirəm. Sizə cansağlığı arzulayıram. Mənim ayağım protezdir, mənə kömək etdiniz, çox sağ olun.







Mehriban Əliyeva: Sağ olun. Sizə cansağlığı arzulayıram.

Veteran idmançı: Bu gün mənə idmanla məşğul olmaqda kömək edirlər, arxamda dayanırlar, dəstək olurlar, yarışlar keçiririk. Mən də bir veteran idmançı kimi Sizə cansağlığı arzulayıram, bizim Pirallahıya xoş gəlmisiniz. Biz Vətənimizə xidmət etməyə həmişə hazırıq.

Veteran neftçi: Mən də bir veteran neftçi kimi, əziz Prezident, əziz vitse-prezident, Sizə möhkəm cansağlığı, uğurlar arzulayıram. Dediyiniz kimi, Sizin siyasətinizin ana xəttini doğrudan da biz təşkil edirik, Azərbaycan xalqı təşkil edir. Bu işdə Sizə yeni-yeni uğurlar arzulayıram. Tanrı Sizi qorusun!

Prezident İlham Əliyev: Çox sağ olun.

***

Sonda xatirə şəkli çəkdirildi.

Avqustun 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Pirallahı rayonunda qəzalı binaların sakinləri üçün inşa edilən kompleksə gələrək, binalardakı mənzillərdə yaradılan şəraitlə tanış olublar. Prezident İlham Əliyevin "Bakı şəhərinin Pirallahı rayonunda tikinti-quruculuq işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2017-ci ildə imzaladığı Sərəncama uyğun olaraq müvafiq komissiya tərəfindən rayon ərazisində qeydiyyata alınmış 369 qəzalı binada yaşayan 5181 nəfərdən ibarət 1510 ailənin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə yeni yaşayış kompleksi inşa olunur. Rayon mərkəzində ayrılmış 6,5 hektar ərazidə yerləşən kompleks 28 çoxmərtəbəli, 807 mənzilli binadan ibarət olacaq. Hazırda kompleksdə 114 mənzildən ibarət üç binanın tikintisi başa çatıb. Kompleksə daxil olan digər binalarda isə tikinti-quraşdırma işləri davam etdirilir. Tikintidə 200 nəfər işlə təmin olunub. Kompleksə 340 şagird yerlik məktəb binası, 120 yerlik iki uşaq bağçası, üç idman meydançası və velosiped zolağı daxildir. Ərazidə genişmiqyaslı abadlıq-quruculuq işləri aparılıb, yaşıllıqlar salınıb.

Bu layihənin icrası bir daha sübut edir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Azərbaycan vətəndaşının sosial məsələlərinin həlli, onun rifahının, o cümlədən mənzil-məişət şəraitinin yaxşılaşdırılması daim diqqət mərkəzindədir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 7-də Pirallahı rayonunda "Nərəkənd" balıqyetişdirmə kompleksi layihəsi çərçivəsində yaradılan "NərəMİZ" balıqyetişdirmə zavodunun istehsalat prosesi ilə tanış olublar. "CMS Properties" şirkətinin rəhbəri Eyvaz Eyvazov dövlətimizin başçısına və birinci xanıma müəssisə haqqında məlumat verdi. Pirallahı adasının girişində təməli Prezident İlham Əliyev tərəfindən 2017-ci ildə qoyulan kompleksin qapalı tipli istehsal sexləri inşa olunub. Ümumi sahəsi altı hektar olan bu müəssisənin ilkin mərhələsində illik istehsal gücü 100 ton nərə, 25 ton çökə əti və 4 ton qara kürüdən ibarət olacaq. Burada 30 iş yerinin açılması nəzərdə tutulur və perspektivdə onların sayı 70-ə çatdırılacaq. Kompleks çərçivəsində açıq tipli ferma, mehmanxana, yaxt-klub və koteclər də layihələndirilib.

"NərəMİZ" balıqyetişdirmə zavodunda müasir texnologiyalarla suyun təkrar dövriyyəsini təmin edən qapalı tipli fermanın inşası tamamlanıb. Qapalı sistemdə suyun təkrar dövriyyəsini təmin edən texnoloji proses nərə balığı istehsalının təbii faktorların təsirindən qorunmasına və yetişdirmə templərinin artmasına imkan yaradır. Burada yetişdirilən nərə balığı inkubasiya olunmuş yumurta mərhələsindən etibarən təxminən 2 il müddətinə 5 kiloqram əmtəə çəkisinə çatdırılır. Layihənin növbəti mərhələsində dənizdə qəfəs təsərrüfatının qurulması nəzərdə tutulur. Hazırda münasib yerin seçilməsi üçün ölçmə-axtarış işləri aparılır. Nəticədə ümumi illik istehsalat həcminin 200 ton balığa və 20 ton kürüyə çatdırılması planlaşdırılır. Kompleksin fermalarında yetişdirilmiş, habelə balıqçıların dənizdə tutduğu balığın mərkəzləşdirilmiş qaydada və zəruri normativlərə uyğun satışının təşkili məqsədilə zəruri şərait yaradılıb, balıq bazarı inşa olunub.

Layihə çərçivəsində ərazinin yaşıllaşdırılması və əhalinin istirahəti üçün şəraitin yaradılması məqsədilə kompleksin ətrafındakı sahil zonası abadlaşdırılıb və ərazidə müasir park salınıb.

Bu layihənin icrası ölkə iqtisadiyyatının qeyri-neft sektorunun inkişafı, o cümlədən idxalı əvəzləyəcək məhsulların istehsalı baxımından mühüm əhəmiyyətə malikdir. Son illərdə aparılan iqtisadi islahatlar nəticəsində qeyri-neft sahəsində mühüm nailiyyətlər əldə olunub, bu sektorun ümumi daxili məhsulda xüsusi çəkisi artıb, rəqabətqabiliyyətli malların istehsalı genişlənib.

# Əli Əhmədovun çağırışı müxalifəti təlaşlandırıb

*"Yeni Azərbaycan Partiyasının bütün fəal üzvlərini, gəncləri yeni fədakarlıqlara səsləyirəm"*

***Dağıdıcılıq prinsiplərindən əl çəkə bilməyən, məhz bu yolla hakimiyyətə iddialı olduqlarını nümayiş etdirən psevdomüxalifətin xalq tərəfindən dəstək almaması, düşərgə daxilində uzun illərdir ki, var-gəl edən "liderləri" daha da aqressivləşdirir. Əbəs deyil ki, zaman-zaman, xüsusilə, seçkilər və s. əhəmiyyətli tədbirlər ərəfəsində fəallaşan dağıdıcılar bu və ya digər yollarla qiyam, üsyan, inqilab çağırışları edib, sabit və inkişaf edən Azərbaycan dövlətinin möhkəm təməllərini laxlatmağa cəhdlər göstərirlər.***

### Azərbaycan dövlətində xalq-iqtidar birliyi formalaşıb və bu birliyə təsir etmək heç cür mümkün deyildir

Gah sosial şəbəkələrdəki canlı yayımları, gah da keçirdikləri azsaylı mitinq və aksiyalarında bir-birlərinə mikrofon ötürən "liderlər", hələ də anlamaq qabiliyyətində deyillər ki, artıq dünyanın sayılıb-seçilən ölkələrindən birinə çevrilmiş güclü Azərbaycan dövlətində xalq-iqtidar birliyi formalaşıb və bu birliyə təsir etmək heç cür mümkün deyildir. Baxmayaraq ki, əllərində xalq amilini bayraq edən radikal müxalifət "liderləri" heç də xalqa arxalanmadıqlarını, əksinə, anti-Azərbaycan əleyhinə fəaliyyət göstərən qurum və təşkilatlardan dəstək aldıqlarını dəfələrlə sübuta yetiriblər. Biz, bu faktı təkcə bir sübutla deyə bilərik - aksiyalarında az insanın toplaşdığını görən "liderlər" sonradan, məhz xalqı ittiham edir, hətta təhqir atəşlərinə də məruz qoyaraq, nəyə görə onların tədbirlərinə dəstək göstərmədiklərini bildirirlər. Əlbəttə ki, xalqın onlara dəstək verməməsi faktı dağıdıcıları özündən çıxarır və onlar bunun səbəblərini araşdırmaq yerinə, daha çox xarici anti-Azərbaycan təşkilat və qurumlarına yalmanır və dəstək axtarırlar. Daha dəqiq desək, iqtidarın gücündən təlaşlanaraq, özlərini erməni lobbisinin dəstəyi ilə fəaliyyət göstərən Qərb təşkilatlarının qucaqlarına atırlar.

### Bu gün YAP-ın sıralarında təmsil olunan elə fədakar insanlar var ki, hər an, hər dəqiqə öz canını Vətəni, dövləti və xalqı üçün qurban verməyə hazırdırlar

Bu arada daha bir faktı xatırlatmaq olar. Bu fakt, hakim Yeni Azərbaycan Partiyasının ümumxalq partiyasına çevrilməsidir ki, onun təməli, bilavasitə dövlətçilik, xalqçılıq, tərəqqi və inkişaf reallığına söykənir. Bu gün YAP-ın sıralarında təmsil olunan elə fədakar insanlar var ki, hər an, hər dəqiqə öz canını Vətəni, dövləti və xalqı üçün qurban verməyə hazırdırlar. Söz yox ki, radikal müxalifət düşərgəsindəki aldadılmış və tələyə salınmış bəzi gənclərdən fərqli olaraq, YAP gəncləri Azərbaycan naminə həm siyasi, həm də digər cəhətdən töhfələrini verirlər. Halbuki radikalçılıqla məşğul olanlar, heç bir əqidə prinsiplərinə bağlı deyillər və onların məqsədləri bütün xəyanətlər və satqınçılıqlar etməklə mühacirət etmək, Avropada və s. Qərb ölkələrində rahat həyat sürməkdən ibarətdir. Təəssüf ki, bu gün də belələri var və onlar xarici ölkələrə saxta yollarla mühacirət etməklə, Azərbaycan dövlətinə və xalqına qarşı mənfur əməllərini davam etdirirlər.



### Əli Əhmədov: "Ortada nə proqramları var, nə strategiyaları, nə ictimai dəstəyi, nə də insanların, azacıq olsa da, inamını qazanmış liderləri"

Bu baxımdan, Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini - İcra katibi Əli Əhmədovun rəsmi "facebook" səhifəsindəki "Daha sıx birləşmək, səfərbər olmaq zamanıdır" sərlövhəli məqaləsində yer almış bir sıra mühüm sətirləri analiz etmək, onlardan nəticə çıxarmaq əhəmiyyət kəsb edir. Misal üçün, "Müxalifət maraqlı xarici qüvvələrlə birləşərək və onların tapşırıqları əsasında Azərbaycana qarşı şər, böhtan və yalan üzərində qurulmuş total kampaniyaya başlayıb" deyə yazan Əli Əhmədov da hesab edir ki, burada məqsəd ölkəmizin davamlı inkişafı yolunda əngəl yaratmaq, insanların rifahının yaxşılaşdırılması üçün həyata keçirilən layihələrin müsbət təsirini azaltmaq, Azərbaycanın imicinin üzərinə kölgə salmaqdan ibarətdir.

Əli Əhmədovun fikirlərindən, həm də belə nəticəyə gəlmək olar ki, beləleri xainlik və satqınçılığa, avantüraçılığa o qədər meyilləniblər ki, milli maraqlarımıza zidd olan nə varsa, onu etməyə hazırdırlar və məmnuniyyətlə edirlər. Ona görə də, müəllif burada yazır ki, gücü və təsiri az olsa da, müxalifət tarixdə lənətlənmiş "beşinci kalon" roluna hazır olduğunu da lazımi ünvanlara çatdırıb: "Beləliklə də, "müxalifət" adı altında antimilli qrup formalaşıb, fəaliyyət göstərir. Ortada nə proqramları var, nə strategiyaları, nə ictimai dəstəyi, nə də insanların, azacıq olsa da, inamını qazanmış liderləri. Görünən qeyri-sağlam siyasi iddiaları, bu iddiaları həyata keçirmək naminə ən çirkin formalara əl atmaq istəyi, milli maraqlarımıza böyük təhlükə olan qüvvələrlə iş birliyinə hazır olmalarıdır. Müxalifətin bütün fəaliyyətinin xaricdə cəmləşməsi, xarici qüvvələrin dəstəyi ilə geniş təbliğat şəbəkəsi yaratması, həmin qüvvələrin səyləri ilə sabitliyi, əmin-amanlığı pozulan ölkələrdə sınaqdan çıxan üsul və metodlardan istifadə etməsi rəqabət mübarizəsində onun siyasi metodlara deyil, digər metodlara istinad etmək niyyətlərindən xəbər verir. Müxalifətin aqressiv, qeyri-konstruktiv qanadına mənsub olan təmsilçilərinin tez-tez zorakılıq çağırışları etməsi, xalqı üsyana səsləyən təbliğatın aparılması buna əyani misaldır".

### İnamla və qələbə ümidləri ilə daha da irəliləmək, mütəşəkkil qaydada və vahid baxışdan çıxış etmək öz vacibliyini qoruyub-saxlayır

Daha bir vacib məqam isə, YAP Sədrinin müavininin ölkə Prezidenti İlham Əliyevin fikirlərini xatırlatmasıdır. Dövlət başçısının Respublika Günü münasibətilə toplantıda Azərbaycana qarşı qeyri-sivil təbliğatın aparılması barədə fikirlərini xatırladan Əli Əhmədov bildirib ki, məqsəd və fəaliyyət formalarına görə siyasi təşkilat kimi çıxış etməli olan müxalifət qeyri-siyasi və qeyri-konstruktiv ünsürə çevrilir. "Bu gün Azərbaycanda müxalifət dedikdə, çox təəssüf ki, əsasən, məhz belə mənzərə və iştirakçılar göz önünə gəlir" deyə müəllif qeyd edib.

Beləliklə, fakt budur ki, məhz həmin təhlildən və gəlinən qənaətdən də, belə bir nəticəyə gəlməyə kifayət qədər zəmin yaranır - belə dağıdıcı və radikal qüvvələrə qarşı mübarizə daha da gücləndirilməli, Azərbaycanın gələcək inkişafı və tərəqqisi üçün daha sıx birləşməli və davamlı işlər aparılmalıdır. Çünki bu gün əldə edilən hər bir nailiyyət belə qüvvələri daha məğlub duruma salır və həmin nailiyyətlər, istər-istəməz, anti-Azərbaycan qüvvələrin əl-qollarını bağlayır. Bu baxımdan, inamla və qələbə ümidləri ilə daha da irəliləmək, mütəşəkkil qaydada və vahid baxışdan çıxış etmək öz vacibliyini qoruyub-saxlayır. Ona görə də, Əli Əhmədov öz qeydində, xüsusilə, vurğulayır: "İnanıram ki, Yeni Azərbaycan Partiyası özünün gücü, səfərbərliyi, qətiyyəti, dövlətə və Prezident İlham Əliyevə sədaqəti ilə bütün antimilli qüvvələrin qarşısında keçilməz maneə olacaq, onların bütün təxribat cəhdlərinin qarşısını alacaq, yalan, böhtan və şayiə üzərində qurulmuş təbliğatına Azərbaycanın bu gününü əks etdirən, parlaq gələcəyindən xəbər verən reallıqlar əsasında tutarlı cavab verəcək. Biz doğru yoldayıq. Bu yolda fədakarlığa dəyər və Yeni Azərbaycan Partiyasının bütün fəal üzvlərini və gəncləri yeni fədakarlıqlara səsləyirəm" . Bəli, məhz bu çağırış bizləri, dövlət və Vətən sevdalılarını, eləcə də, nüfuzlu YAP ordusu üzvlərini daha da fəal olmağa, o cümlədən, fədakarlıqlara səsləyir. Güclü Azərbaycan və doğma Vətən uğrunda bizlər bu çağırışa mütəşəkkilliklə dəstək verməliyik!

***Rövşən NURƏDDİNOĞLU***

## Azərbaycan XİN: "Ermənistan işğal olunmuş Dağlıq Qarabağ bölgəsində anneksiya siyasəti apardığını etiraf edir"

Ermənistanın baş naziri Nikol Paşinyanın ölkəmizin işğal olunmuş Dağlıq Qarabağ bölgəsinin Xankəndi şəhərinə qanunsuz səfəri zamanı səsləndirdiyi təxribatçı fikirləri ilə bağlı Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatına Ermənistan Xarici İşlər Nazirliyi kifayət qədər xaotik və məntiqi izahı olmayan cavab verib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin mətbuat xidməti idarəsi Ermənistan XİN-in bu cavabını şərh edib. Şərhdə deyilir: "Hesab edirik ki, Ermənistanın Xarici İşlər Nazirliyi Azərbaycana qarşı silahlı təcavüz həyata keçirərək ölkəmizin Dağlıq Qarabağ və ətraf bölgələrini qanunsuz güc tətbiqi ilə işğal edən, bu ərazilərdəki azərbaycanlı əhaliyə qarşı tam etnik təmizləməni həyata keçirən və Xocalı şəhərində soyqırımı aktı törədən bir ölkənin Azərbaycanı sivil normalara və ədəb-ərkana riayət etməməkdə, habelə dözümsüzlükdə ittiham edə biləcək subyektləri sırasında ən sonuncudur.

Üstəlik, Ermənistan XİN Azərbaycan hökumətini N.Paşinyanın Xankəndidə Ermənistan, Qarabağ və diaspor üçün "birlik, həmrəylik, inkişaf və tərəqqi" mövzusunda etdiyi çıxışının mahiyyətini və məzmununu başa düşməməkdə inandırmağa çalışır. Bu ölkənin baş nazirinin arxasınca, "nəcib niyyətini" oxşar və yöndəmsiz şəkildə izah edən Ermənistan XİN faktiki olaraq, Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinə münasibətdə rəsmi Ermənistan tərəfindən anneksiya siyasətinin aparıldığını etiraf edir.

Ermənistan tərəfinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üzrə ATƏT-in Minsk qrupu həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqlar prosesinin məntiqinə xələl gətirən belə bir qeyri-adekvat yanaşmanı nümayiş etdirməsi regional gərginliyə səbəb olur və bunun məsuliyyəti bütünlüklə Ermənistanın üzərinə düşür. Ermənistan XİN-in başa düşməkdə çətinlik çəkdiyi, Azərbaycan Xarici İşlər Nazirliyinin 6 avqust tarixli kifayət qədər aydın bəyanatında məhz bu fikirlər qeyd edilir.

## "Dini bayramlar: tarix, ənənə və müasirlik" mövzusunda konfrans keçirib



Dünən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) "Dini bayramlar: tarix, ənənə və müasirlik" mövzusunda konfrans keçirib. SİA-nın verdiyi məlumata görə, tədbirdə Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin böyük məsləhətçisi Əliheydər Zülfüqarov, DQİDK sədrinin birinci müavini Səyyad Salahlı, Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev, müvafiq dövlət qurumlarının təmsilçiləri, dini icma sədrləri, din xadimləri, dinşünas alimlər, ilahiyyatçılar və gənclər iştirak ediblər.

Tədbirdə çıxış edən Səyyad Salahlı dini bayramlardan söz açıb. Qurban və Ramazan bayramının Azərbaycanın iki ən böyük dini bayramı olduğunu nəzərə çatdıran S.Salahlı hər iki bayramın bütün İslam dünyasında qeyd olunduğunu söyləyib: "Təəssüf ki, bəziləri Qurban bayramını "ət bayramı", "ət bolluğu" bayramı kimi təqdim edirlər. Ancaq bu yanaşma bayramı mahiyyətindən uzaqlaşdırmaq deməkdir. Bayramların fəlsəfəsi insanları bir araya gətirir. Qurban bayramının mahiyyətini hər kəs bilir. Mahiyyət odur ki, Həzrəti İbrahim Allah qarşısında sədaqətli bəndə olduğunu göstərmək istəyir. Əti keçmiş zamanlarda varlı insanlar yeyərdilər. Allah-təala bu bayramı göndərib ki, yoxsul insanlar da ət yesinlər. Ramazan bayramına da pəhriz bayramı kimi baxmaq lazım deyil. Bu bayram insanın Allah qarşısındakı imtahanıdır".

Komitə rəsmisi Azərbaycanda Qurban və Ramazan bayramlarının dövlət səviyyəsində qeyd olunduğunu əlavə edib.

Daha sonra Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktorunun müavini Ceyhun Əliyev bayramların mahiyyətindən, onların tarixindən söz açıb: "Qurban əti kəsilərkən bayramın mahiyyətinə daha çox fikir verilməlidir. Qurban əti kəsilərkən ətin çox hissəsini insan özündə saxlamamalı və ya qohumlara paylamamalıdır. Qurban ətini yoxsul insanlara paylamaq Qurban bayramının daha şəfqətli tərəfidir. Təəssüf ki, bəzən dini bayramlar vasitəsilə radikal ideyaların xaricdən ixrac edilməsinə cəhd edilir. Bu, qeyri-ənənəvi prosesdir. Bu baxımdan, bayramların mahiyyətini saxlamalıyıq. Müasir dövrdə dini bayramlar dövlət səviyyəsində qeyd olunur". Tədbirdə digər çıxış edənlər də mövzu ətrafında fikirlərini bölüşüblər.

## "Ermənistan təcavüzkar olduğunu açıq bəyan etdi və əsl sifətini göstərmiş oldu"



Ermənistanda hakimiyyətə gələrkən özünü "demokratik dəyərlərə sadiq" birisi kimi qələmə verməyə çalışan Nikol Paşinyan əgər əvvəlcə müxtəlif ziddiyyətli bəyanatlar verməklə danışıqlar prosesinə maneələr yaradırdısa, sonuncu çıxışı zamanı o, Ermənistanın təcavüzkar olduğunu açıq bəyan etdi və əsl sifətini göstərmiş oldu.

Bu fikirləri Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin azərbaycanlı icmasının rəhbəri Tural Gəncəliyev Azərbaycanın işğal edilmiş ərazilərində keçirilən "Pan-Ermənistan oyunları" ilə bağlı danışarkən deyib. O qeyd edib ki, Azərbaycanın işğal olunmuş ərazilərinə bu oyunlarla bağlı gələcək iştirakçılar nəzarətdə saxlanılacaq və orada hər hansı bir xarici ölkənin vətəndaşı və ya jurnalist iştirak edərsə, onlara etiraz ediləcək. Həmin şəxslər Xarici İşlər Nazirliyinin "qara sıyahı"sına da daxil edilə bilərlər. Onun sözlərinə görə, Ermənistanın əsl niyyəti məhz işğal siyasətidir, Ermənistan və Dağlıq Qarabağdakı cinayətkar rejim tərəfindən indiyə qədər səsləndirilən "öz müqəddəratını müəyyən etmək hüququ" işğal siyasətinin arxasında gizlənməkdən başqa bir şey deyil. Həmin oyunlar öz torpaqlarından qovulmuş azərbaycanlı icmanın əsas insan hüquqlarının pozulması və etnik təmizləmənin törədildiyi məkanda keçirilir. Belə olan halda, bu oyunların keçirilməsi azərbaycanlılara qarşı diskriminasiya şəraiti yaradır və qəbuledilməzdir.

T.Gəncəliyev vurğulayıb ki, Azərbaycanın beynəlxalq tanınmış sərhədləri bərpa olunduqdan və ölkəmizin işğal edilmiş ərazilərindən qovulmuş yüz minlərlə azərbaycanlı geri döndükdən sonra idman oyunları və digər birgə tədbirlərin həyata keçirilməsi mümkün ola bilər. Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının əvvəlki bəyanatlarında artıq qeyd edilib ki, Ermənistanın hərbi təcavüzündən öncə Dağlıq Qarabağın erməni və azərbaycanlı icmaları sülh şəraitində idman yarışlarında birgə iştirak edirdilər. Lakin Ermənistanın hərbi təcavüzü buna son qoyub. Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması idman oyunlarının keçirilməsinə qarşı çıxış etmir və oyunların ədalətli sülhə və barışığa xidmət etməli olduğunu vurğulayır.

İcma rəhbəri əlavə edib ki, Ermənistan və cinayətkar rejimin KİV-lərində "Pan-Ermənistan oyunları" üçün hətta müvafiq "təhlükəsizlik" tədbirlərinin görüldüyü qeyd edilib. Bəyan etmək istərdik ki, Dağlıq Qarabağ bölgəsi də daxil olmaqla, Azərbaycan Respublikası yeganə suveren qismində öz ərazisinin istənilən hissəsində təhlükəsizlik və digər nəzarət tədbirlərini həyata keçirmək hüququna malikdir. Təcavüzkar Ermənistan tərəfindən işğalın nəticələrini "möhkəmləndirmək" üçün atılan istənilən addım ab initio beynəlxalq hüquqaziddir və heç bir fayda verməyəcək.

Qeyd edək ki, Ermənistan KİV-lərində yayılan məlumata əsasən, Azərbaycanın işğal edilmiş ərazilərində 2019-cu il avqustun 5-də qondarma "Pan-Ermənistan oyunları"nın "açılış mərasimi" keçirilib. Ermənistan və ölkəmizin ərazilərində fəaliyyət göstərən cinayətkar qurumun iştirakı ilə keçirilmiş "açılış mərasimi"ndə Ermənistan baş naziri Nikol Paşinyan çıxış edib.

Nikol Paşinyan çıxışı zamanı təmsil etdiyi ölkənin Azərbaycana qarşı hərbi işğal siyasəti apardığını bir daha nümayiş etdirərək, həyata keçirilən təcavüzü açıq şəkildə səsləndirməkdən belə çəkinməyib və Azərbaycanın beynəlxalq təşkilatlar və dünya ictimaiyyəti tərəfindən tanınan suveren ərazisi - Dağlıq Qarabağın Ermənistana aid olduğunu bəyan edib.

## Ermənistan KİV-ləri: Zabitlər əsgərlərə zorakılıq edir!



Ermənistanın işğalı altındakı Ağdərə rayonu ərazisində, Madagiz kəndindəki düşmənin hərbi hissəsində zabitlərin əsgərlərə qarşı zorakılıqları davam edir. AZƏRTAC Ermənistan KİV-lərinə istinadla xəbər verir ki, hərbi hissənin bir neçə zabiti barəsində cinayət işi başlanıb, digərləri müxtəlif cinayətlərə görə məhkum edilib. Amma onlar xidmətdən azad olunmayıblar və hələ də hərbi hissədə qulluq edirlər. Bu il iyunun 12-də gecə saatlarında mayor Faxradyan əsgərləri yerə yıxaraq onları tapdalayıb. O, əsgərləri "Yat" komandası verildikdən sonra kazarmanın yataqxanasında yemək yediklərі üçün cəzalandırıb. Əsgərləri yemək yeyərkən yaxalayan mayor onlardan üçünü - kiçik serjant Mxitar Sarkisyanı, Sergey Qriqoryanı və Narek Petrosyanı döyüb. Səhər saat 7.30-da isə o, polkun qarşısında Poqosyanı və daha beş hərbçini sıraya düzüb. Butulka ilə kiçik serjant Poqosyanın başına və sifətinə zərbələr endirın mayor digərlərinə uzanmağı əmr edib və onları tapdalayıb.

Bu əməllərinə görə həmin ilin avqustunda məhkəmə mayorun barəsində başqa yerə getməmək barədə iltizam tədbiri barədə hökm çıxarıb. İl yarım davam edən istintaq dövründə hərbi prokurorluq mayoru təcrid etməyib və o, xidmətini davam etdirib. Nəhayət, bu ilin fevralında Gorus məhkəməsi mayor Faxradyanı dörd il müddətə azadlıqdan məhrumetmə cəzasına məhkum edib. Lakin onun cəzası şərti cəza ilə əvəzlənib. Bu qərar qəbul olunarkən polk komandirinin təqdim etdiyi müsbət xarakteristika əsas götürülüb. Ancaq hökmdən cəmi bir neçə ay sonra Faxradyan yenə əsgəri döyüb və iş hərbi prokurorluğa göndərilib. Amma mayor yenə də məhkum edilməyib. Bu dəfə də onun barəsində başqa yerə getməmək haqda iltizam tədbiri seçilib.

Cinayətkar mayor Faxradyan prokurorluğun, hakimlərin, komandirlərinin, polkovnik Armen Gözəlyanın, müdafiə naziri Davit Tonoyanın tam himayəsi altındadır. Madagizdəki hərbi hissədə zorakılıq və cinayətlər isə davam edir.

## Ötən ay muxtar respublikada 525 daşınmaz əmlak obyekti dövlət qeydiyyatına alınıb



Muxtar respublikada torpaq istifadəçiliyi sahəsində aşkar olunmuş qanun pozuntularının aradan qaldırılması, mülkiyyət hüquqlarının dövlət qeydiyyatına alınması və elektron kadastr məlumat bazasının təkmilləşdirilməsi iyul ayında da diqqətdə saxlanılıb. Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, ötən ay 22 ailə təsərrüfatına məxsus qeyri-yaşayış obyekti, həyətyanı təsərrüfat binaları və təsərrüfat fəaliyyəti ilə əlaqədar icarəyə götürülmüş torpaq sahələri üzərində hüquqlar dövlət qeydiyyatına alınıb.

Kəngərli rayonunda daşınmaz əmlak obyektlərinin plana alınması başa çatdırılıb, Şahbuz rayonunda planaalma işlərinə start verilib. Ay ərzində 1519 daşınmaz əmlak obyekti plana alınıb. Şahbuz rayonunda torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması və rəqəmsal kadastr xəritəsinin tərtib olunması istiqamətində görülmüş işlər və qarşıda duran vəzifələrə həsr olunmuş müşavirə keçirilib. Şahbuz rayonunun Ağbulaq, Gömür və Biçənək bələdiyyələrinin sərhəd xəritələrinə dair müvafiq yerquruluşu sənədləri elektron variantda hazırlanıb və torpaqların növləri üzrə uçotu aparılıb. Babək rayonunun Məzrə və Zeynəddin kəndlərində keçirilmiş monitorinqlər nəticəsində aşkar olunmuş torpaqlardan qanunsuz istifadə faktlarının aradan qaldırılması istiqamətində işlər davam etdirilib. İyul ayında 525 daşınmaz əmlak obyekti dövlət qeydiyyatına alınıb, 408 texniki sənəd hazırlanıb, yeni yaranmış 75 daşınmaz əmlak obyektinə ünvan verilib. Komitənin səyyar xidmət qrupu tərəfindən muxtar respublika üzrə 8 yaşayış məntəqəsində 58 vətəndaşın müraciətinə baxılıb, 61 vətəndaşa elektron xidmətlər göstərilib.

## "Neft ölkələri yeni neft şokuna indidən hazırlaşmalıdırlar"

"Neftin dünya bazar qiyməti son 8 ayda ən aşağı səviyyəyə düşüb". Bunu SİA-ya iqtisadçı-ekspert Vüqar Bayramov deyib. Onun sözlərinə görə, brent markali neftin 1 barelinin qiyməti artıq 59 dollardan ucuz satılır: "Ötən həftə proqnozlaşdırdığımız kimi, neftin dünya bazar qiymətində azalmaların davam etməsi gözlənilən idi və yeni qiymət düşüşləri də istisna olunmur. Belə ki, ABŞ-ın sentyarb ayından etibarən daha 300 milyard dollarlıq Çin məhsuluna əlavə 10 faiz idxal vergisi tətbiq etmək istəyi ticarət müharibəsinə yeni mərhələyə başlatdı. Ticarət müharibəsinin genişlənməsi qlobal iqtisadi artım tempini aşağı salaraq neftə olan tələbi azaldır. Digər tərəfdən, qlobal iqtisadi gərginliyin artması fonunda Çinin İran neftinin idxalını bərpa edəcəyi də müzakirə mövzusudur. Bu baş verəcəyi halda neftin 1 barelinin qiyməti 30 dollaradək azala bilər. Şist neft hasilatında da artımların olduğunu nəzərə alsaq indi qlobal arenda heç nə neft ölkələrinin xeyirinə dəyişmir.



Neftin dünya bazar qiymətində kəskin enişlər olarsa ölkəmizə daxil olan valyutanın həcmi yenidən azaldacaq. Azərbaycan ixracatının 90 faizinin enerji məhsullarının olduğunu nəzərə alsaq "qara qizilin" qiymətinin ölkəyə daxil olan valyutanın həcminə təsirlərini müəyyənləşdirmək çətin olmaz. Azərbaycan üçün neftin bir barelinin qiymətinin 60 dollardan aşağı olması fiskal, 50 dollardan az olmasının isə monetar təsirləri var. Neftin bir barelinin 2019-cu ilin dövlət büdcəsində qiyməti 60 dollar nəzərdə tutulub. Mərkəzi Bank üçün isə 50 dollardan aşağı neft qiyməti "qırmızı zonaya" daxil olmaq anlamına gəlir. Çin valyutası ilə yanaşı Rusiya rublu da mövqeyini qoruyub saxlamaqda çətinlik çəkir. Göründüyü kimi, qlobal və regional valyuta bazarında da volatillik yüksək olaraq qalır. Bu baxımdan neftin qiymətində azalmalar davam edərsə ölkəmizdə də dollara tələb yüksələcək. Təbii ki, bu halda məzənnənin necə dəyişməsi yenə də Mərkəzi Bankdan asılı olacaq. Amma bütün hallarda neft ölkələri yeni neft şokuna indidən hazırlaşmalıdırlar".

*Ceyhun Rasimoğlu*

## Səyyad Salahlı: "Qurban bayramının düzgün təqdim edilməməsi onu mahiyyətindən uzaqlaşdırır"



"Qurban bayramının mahiyyətinin düzgün təqdim edilməməsi onu əsl mahiyyətindən uzaqlaşdırır." Bu sözləri Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyyad Salahlı "Dini bayramlar: tarix, ənənə və müasirlik" mövzusunda keçirilən konfransda deyib.

Qurban və Ramazan bayramlarının Azərbaycanın iki ən böyük dini bayramı olduğuna diqqətə çatdıran S.Salahlı hər iki əlamətdar günün bütün İslam dünyasında qeyd olunduğunu söyləyib. Təəssüf ki, bəziləri Qurban bayramının mahiyyətini düzgün anlamır. Bu isə bayramı əsl mahiyyətindən uzaqlaşdırmaq deməkdir. Bayramların fəlsəfəsi insanları bir araya gətirməsidir. Bu bayram insanın Allah qarşısındakı imtahanıdır.

# Ermənistanda korrupsiya ilə mübarizə vədləri boşa çıxıb

*"1in.am" saytı: "İctimai rəydə belə bir şübhə yaranır ki, inqilab günlərində Serj Sarkisyanla Nikol Paşinyan arasında kulisarxası gizli sövdələşmələr olub"*



***"İyirmi il kriminal oliqarxiya ölkəni yeyib-bitirib, lakin inqilabın qələbəsindən sonra, Ermənistanda heç bir yüksək vəzifəli məmur korrupsiya ittihamı ilə qanun qarşısına çıxarılmayıb". Bu barədə Ermənistanın "1in.am" saytında baş nazir Nikol Paşinyanın fəaliyyətsizliyinə həsr olunmuş məqalədə yazılıb. Özündə hazırkı iqtidara qarşı bir sıra ittihamları əks etdirən təhlil yazıda bildirilir ki, əgər Manvel Qriqoryanın "tuşonka" işi istisna olunarsa, belə bir təsəvvür yaranar ki, ötən 20 ildə Ermənistanda sistemləşdirilmiş korrupsiya və talan olmayıb.***

Erməni müəllif təhlilində Robert Koçaryan məsələsinə də toxunub. SİTAT: "Əlbəttə, Robert Koçaryana qarşı irəli sürülən ittihamlardan biri rüşvətalmadır, lakin hazırkı məqamda bu, ilkin istintaq orqanının əsaslı aksenti hesab edilə bilməz. "Əsrin rüşvətxoru", sabiq təbiətin mühafizəsi naziri Aram Arutunyan "ehtiyatla" gizlənir, Serj Sarkisyana isə, ümumiyyətlə, heç bir ittiham irəli sürülmür, bundan əlavə, o, inqilabı və cəmiyyəti ələ salaraq, Baden-Badendə necə istəyirsə, elə də kef edir".

Erməni analitik Serj Sarkisyanın qohumu Saşik Sarkisyanın əmisi ilə 50-50-yə "müəllif hüququnu" bölüşdürdüyünü də xatırladaraq, qeyd edir ki, Saşik ittiham olunursa da, hüquq-mühafizə orqanlarının "humanistliyi" sonsuzdur və onun ölkədən rahat şəkildə çıxmasına icazə verilibmiş...

## Arman Babacanyan: "Ermənistanda korrupsiya ilə mübarizə, sadəcə, sənəd üzərində qalır"

Yazıda erməni deputat Arman Babacanyanın "Facebook"dakı statusu da yer alıb. Belə ki, erməni deputat yazır ki, inqilab başladıqdan sonra Ermənistanda korrupsiya ilə mübarizə çərçivəsində bir nəfər də olsun korrupsiyalaşmış prezident, baş nazir, nazir, parlament sədri, deputat, polis, hakim cinayətlərinə görə həbs olunmayıb: "Ermənistanda korrupsiya ilə mübarizə, sadəcə, sənəd üzərində qalır və belə davam edərsə, bizdə heç bir iqtisadi artım tempindən, həmçinin, hazırkı hakimiyyətin çox bəhs etdiyi inklüziv iqtisadiyyatdan danışmaq olmaz. Nəhayət, hələ ki, mövcud iqtidar 20 illik kriminal rejimə ən sərt siyasi qiyməti verməyə utanırsa, dövlətçiliyə qarşı fəaliyyət göstərmiş cinayətkarlar həbsxanalara yerləşdirilməyiblərsə, Ermənistanın dövlətçilik, suverenlik, inkişaf etmək ümidləri təhlükədə qalacaq".

"Ermənistanda korrupsiya ilə mübarizə deklarativ xarakter daşıyır və Serj Sarkisyan azadlıqda qalırsa, Ovik Abramyan nəhəng mülkədardırsa, Qagik Xaçatryan oğurladıqlarını istədiyi kimi xərcləyirsə, heç kim başqa nəyisə sübuta yetirə bilməz" yazan erməni müəllif bildirir ki, xüsusilə, Serj Sarkisyanla bağlı məsələ artıq ictimaiyyətdə bəzi şübhələr yaratmağa başladıb. SİTAT: "İctimai rəydə belə bir şübhə yaranır ki, inqilab günlərində Serj Sarkisyanla Nikol Paşinyan arasında kulisarxası gizli sövdələşmələr olub. Təəssüf ki, sabiqlər cəzalarını almayınca, sözügedən kontekstdə müvafiq söhbətlər daha da artacaq və bu da Paşinyanın reytinqinin obyektiv düşüşünə səbəb olacaq. Başqa tərəfdən, Nikol Paşinyan sabiqlərin siyasi-hüquqi məsələsində özü-özünü tələyə salıb."

Sonda isə bildirilir ki, əgər ölkədə instusional islahatlar yoxdursa, effektiv korrupsiya ilə mübarizə məsələsindən, ümumiyyətlə, danışmaq olmaz. Beləliklə, fakt budur ki, Nikol Paşinyanın digər sahələrdə verdiyi vədləri ilə yanaşı, bu sahədə də, götürdüyü öhdəlikləri sadəcə hava kimi qalıb və heç bir nəticəni vermir. Fakt budur ki, Ermənistanın mövcud vəziyyəti göz önündədir və bunu elə ermənilərin öz dillərindən açıq-aydın hiss etmək mümkündür.

***Rövşən RƏSULOV***

# Cocuq Mərcanlı kəndinin əhalisinə pulsuz hüquqi yardım göstərilib



Azərbaycan Respublikasının Vəkillər Kollegiyası Prezident İlham Əliyevin ötən il fevralın 22-də imzaladığı "Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncama əsasən, hüquqi məsləhətə ehtiyacı olan aztəminatlı şəxslərə ödənişsiz hüquqi xidmətlərin göstərilməsini davam etdirir. Vəkillər Kollegiyasından AZƏRTAC-a bildiriblər ki, tövsiyənin icrası ilə bağlı həyata keçirilən tədbirlərin davamı olaraq Vəkillər Kollegiyasının təşəbbüsü ilə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin əhalisinə ödənişsiz hüquqi yardım göstərilib. Vəkillər Kollegiyasının üzvü, "Kəngərli və partnyorları" bürosunun vəkili, professor Mais Əliyev tərəfindən 20-dək vətəndaşa müxtəlif növ hüquqi yardım göstərilib, onların problemləri dinlənilib və müvafiq məsləhətlər verilib. Həmin məsələlərlə bağlı müxtəlif dövlət və qeyri-dövlət qurumlarına ərizə və şikayətlər yazılıb. Vəkillər Kollegiyası tərəfindən belə tədbirlərin respublikanın digər regionlarında da keçirilməsi nəzərdə tutulub.

# "Joxovurd": "Samvel Babayan qisasa hazırlaşır"



Ermənistanın "Joxovurd" qəzetinin yazdığına görə, avqustun sonlarında, ya da sentyabrın əvvəllərində "Stepanakertdə" (Xankəndində - dırnaqlar bizimdir-R.N.) "Demokratik vətən" partiyasının təsis qurultayı keçiriləcək. SİA adıçəkilən erməni nəşrinə istinadən xəbər verir ki, təsis olunacaq partiyaya Samvel Babayan rəhbərlik edəcək, partiyanın yaranması qeydə alınacaq, sonra isə təşkilatın rəhbərliyi müəyyən ediləcək. "Partiyanın yaranmasına qədər isə, artıq "Stepanakertdə" S.Babayanın ofisi fəaliyyət göstərir", deyə yazan erməni nəşrinə görə, "konstitusiya dəyişiklikləri" ilə bağlı təklifin qəbul edilməsi məsələsi hələ də aydın olmasına baxmayaraq, S.Babayanın "prezidentliyə namizəd" kimi irəli sürülməsi də bəlli deyil. "Artıq onun tərəfdarları fəal seçkiqabağı kampaniyaya başlayıblar", "Joxovurd" onun və tərəfdarlarının qisasa hazırlaşdığını yazır.

Qeyd edək ki, hələ 2007-ci ildə S.Babayan "Alyans" partiyasına rəhbərlik edib və onun Ermənistanın hazırkı rəhbərliyi ilə yanaşı, "DQR" rəhbərliyi ilə də münasibətləri düşmənçilik səviyyəsindədir. Daha dəqiq desək, Babayan qondarma respublikada siyasi hakimiyyəti zor gücü ilə dəyişdirilməkdə də ittiham olunub. Maraqlıdır ki, S.Babayan da Ermənistanın mövcud iqtidarı və "DQR"in hazırkı rejiminə qarşı düşmən mövqedə dayanmasını inkar etmir.

***Rövşən***

# "Amerikalı müttəfiqlərimizlə birlikdə hərəkət etməyi arzu edirik"



"Planlarımız, hazırlıqlarımız və hərbi birliklərin yerləşdirilməsi başa çatmış vəziyyətdədir". SİA-nın verdiyi məlumata görə, bunu Türkiyə Milli Müdafiə Naziri Hulusi Akar Fəratın şərqində həyata keçirilməsi planlaşdırılan əməliyyatla bağlı danışarkən deyib. O qeyd edib ki, Türkiyə əməliyyatda müttəfiqlərlə birlikdə hərəkət etməyi arzu edir: "Amerikalı müttəfiqlərimizlə birlikdə hərəkət etməyi, çalışmağı arzu edirik. Mümkün olmazsa, edəcəklərimizi dəfələrlə açıq şəkildə söyləmişik"

# Qurban bayramı ilə əlaqədar əlavə avtobuslar cəlb edəcək

Bakı Beynəlxalq Avtovağzal Kompleksi (BBAK) Qurban bayramı ilə əlaqədar avqustun 7-dən 14-dək gücləndirilmiş iş rejimində fəaliyyət göstərəcək. SİA-nın məlumatına görə, qurumun mətbuat xidmətinin rəhbəri bildirib ki, bayram günlərində sərnişinlərin rahatlığının təmin olunması və sərnişin sıxlığının tənzimlənməsi məqsədi ilə ehtiyat avtobusların sərnişindaşıma prosesinə cəlb olunması ilə yanaşı bütün zəruri tədbirlər görüləcək.




Sərnişinlər şikayət və ya sorğularla bağlı (012) 406-01-58/59 nömrəli məlumat mərkəzinə zəng etməklə yanaşı, info@avtovagzal.az e-mail ünvanına və ya Bakı Beynəlxalq Avtovağzal Kompleksinin "Facebook" səhifəsinə yazıb müraciət edə bilərlər. Biletləri BBAK-ın kassalarından gündəlik və ya səfər tarixinə 10 gün qalmışdan 1 gün öncəyədək əldə etmək mümkündür. "Onlayn" qaydada bilet almaq istəyən sərnişinlər avtovagzal.az saytı üzərindən və ya mobil tətbiq vasitəsilə biletlərini təmin edə bilərlər.

# "Düşməni darmadağın edib, ərazi bütövlüyümüzü təmin etməliyik"

***"Ermənistan rəhbərliyinin Xankəndində keçirilən mitinq zamanı söylədiyi fikirlər təkcə Paşinyanın deyil, bütün dünya ermənilərinin, ümumilikdə bu dövlətin tutduğu mövqedir. Bununla da onlar bir daha "Böyük Ermənistan" yaratmaq, işğalçılıq siyasətindən əl çəkməyəcəklərini bəyan edirlər". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Elman Məmmədov deyib.***

O bildirib ki, artıq Ermənistan rəhbərliyi 30 ilə yaxın müddətdir Azərbaycan torpaqlarını işğal etdiklərini boynuna almır, bizim torpaqları tarixən onlara aid olduqlarını iddia edirlər: "Paşinyan da Xankəndində etdiyi çıxışı ilə bu mövqeyin nöqtəsini qoydu. Onlar Azərbaycanı müharibəyə məcbur edirlər. Belə olan halda da Azərbaycan öz münasibətini danışıqlar, etiraz, bəyanat yolu ilə deyil, güc yolu göstərməlidir".

Deputat söyləyib ki, Nikol Paşinyan son bəyanatı ilə ATƏT-in Minsk qrupu həmsədər dövlətləri, BMT-yə və ümumilikdə beynəlxalq hüquqa hörmət etmədiyini bir daha göstərdi: "O dünyaya bəyan etdi ki, beynəlxalq hüququ saymır və öz bildiyini edir. Amma ən pisi odur ki, Ermənistan rəhbərliyinin qanunazidd bəyanatından sonra başda BMT olmaqla, heç bir beynəlxalq təşkilat və ya həmsədr dövlətlər məsələyə münasibət bildirməyiblər. Bildirsələr də, yenə də siyasi iradənin ortaya qoyulması, gərginliyin azaldılması, münaqişənin hərbi yolla mümkünsüzlüyü ilə bağlı nağılların oxuyacaqlar. Onsuz da uzun illərdir ki, biz bu nağılları eşidirik".

Paşinyanın bu cür bəyanatlar səsləndirməyə ürəkləndirənlərin həmsədr dövlətlər olduğunu deyən E.Məmmədov qeyd edib ki, onlar tarixin bütün məqamlarında erməni məsələsini qabardaraq gündəmə gətiriblər: "Məhz həmin dövlətlər erməniləri dünyanın bütün bölgəsindən tarixi Azərbaycan torpaqlarına gətirərək Ermənistan deyilən dövlət yaradıblar. XX əsrin sonunda da torpaqlarımızı işğal edib onlara veriblər. Bu baxımdan, həmin dövlətlərdən yaxşı heç nə gözləməməli, öz mövqeyimizi ortaya qoyaraq düşməni darmadağın edib, ərazi bütövlüyümüzü təmin etməliyik".

***Nailə Məhərrəmova***

# İDEA-nın layihələri uğurla reallaşır

## "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan iyirmi səkkizinci həyət istifadəyə verilib

***Azərbaycanda aparılan abadlıq və quruculuq işləri, yeni layihələrin icrası ölkəmizin sürətli inkişafını əsaslandıran amillərdəndir. Bu inkişaf ölkəmizin beynəlxalq aləmdə nüfuzunu ildən-ilə artırır, dünyanın müxtəlif qitələri ilə münasibət quran Azərbaycanın söz sahibinə çevrilməsinə səbəb olur. İstənilən sahədəki nailiyyətlər Azərbaycan məfhumunu dünyaya daha da yaxınlaşdırır.***



Heydər Əliyev Fondunun da həyata keçirdiyi layihələr öz məzmunu, ideyası baxımından Azərbaycan reallıqlarına xidmət edir və geniş sferanın əhatəliyi, əhəmiyyəti baxımından önəmlidir. Fondun Azərbaycanın tərəqqisi və xalqımızın rifahı naminə həyata keçirdiyi genişmiqyaslı proqram və layihələrinin nəticəsi olaraq xarici ölkələrin fondları ilə əməkdaşlığı genişlənir, xalqlararası münasibətlər möhkəmlənir. Heydər Əliyev Fondu tərəfindən bir sıra dost dövlətlərdə nümayəndəliklərin yaradılması bu əlaqələrin genişlənməsinə təkan verir. Fondun Türkiyə, Rusiya və bir sıra başqa ölkələrdə nümayəndəliklərinin yaradılması və fəaliyyəti bu əlaqələrin möhkəmlənməsində bilavasitə rola malikdir. Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiya nümayəndəliyinin rəhbəri Leyla Əliyevanın həyata keçirdiyi layihələr iki ölkə arasında münasibətlərin inkişafında xüsusi əhəmiyyət kəsb edir.

"Baku" jurnalının təsisçisi, "Xocalıya ədalət" kampaniyasının təşəbbüskarı, İslam Konfransı Təşkilatının Gənclər Forumunun baş əlaqələndiricisi, Azərbaycanlı Gənclər Birliyinin sədri, Ümumrusiya Azərbaycanlılar Konqresi Mərkəzi Şurasının Rəyasət Heyətinin üzvü olan Leyla Əliyeva bu və ya digər statusları ilə həyata keçirdiyi layihələr real fəaliyyətinin göstəricisidir. Qeyd edək ki, gördüyü işlər dünya miqyasında cavabsız qalmır. Onun təltifləri bu fikri deməyə əsas verir. Belə ki, Nyu-Yorkun humanitar aksiyalarında fəal iştirakına görə "Key to Life" fəxri mükafatına layiq görülüb. Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinin diqqətinə çatdırmaq işində xidmətlərinə görə, "Tərəqqi" medalı ilə təltif edilib. Ətraf mühitin mühafizəsi üzrə VII Beynəlxalq Layihə Olimpiadasının Təşkilat Komitəsinin idarə heyəti tərəfindən "Ekoloji mühitin qorunmasına görə" fəxri fərmanla təltif edilib. Dünyada aclığa qarşı mübarizəyə, ərzaq təhlükəsizliyinin təmin edilməsinə, kənd təsərrüfatı, meşə və balıqçılıq təsərrüfatının səmərəliliyinin artırılmasına, sağlam ərzaq sistemi yaradılmasına verdiyi töhfəyə görə 2015-ci ilin may ayında Leyla xanım BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Xoşməramlı Səfiri adına layiq görülüb. Onun çoxsaylı təltifləri sırasında "Həştərxan vilayəti qarşısında xidmətlərinə görə" ordeni də var. Rusiyanın Azərbaycanlı Gənclər Birliyi kimi ictimai təşkilatının sədri olan Leyla Əliyeva öz ismi ətrafında yüksək fikir formalaşdırmağa nail olub. Leyla xanım, həqiqətən də, ölkələr arasında mehriban qonşuluq münasibətlərinin möhkəmlənməsi üçün böyük işlər görür. Beynəlxalq aləmdə millətlərarası münaqişələr yaşandığı dövrdə Azərbaycanın sülh və əmin-amanlıq istəyini dünyaya göstərə bilir. BMT radiosuna verdiyi müsahibəsində belə deyir:"Heydər Əliyev Fondu mənim ictimai fəaliyyətə öz töhfəmi vermək üçün böyük imkan deməkdir. Hesab edirəm ki, Azərbaycan gənclərinin hər bir nümayəndəsi bu işə müəyyən dərəcədə öz töhfəsini vermək istəyir. Əlbəttə, əgər fayda verə biləcək bir iş görməyə imkan varsa, mən həmin imkandan məmnuniyyətlə istifadə edirəm".

Ölkənin reallıqlarını ictimai fəaliyyəti ilə Azərbaycan sərhədlərindən kənarda yaşadan Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatı irimiqyaslı layihələri əsasında böyük uğurlara imza atır. Daim corafiyasını genişləndirmək ideyasını gerçəkləşdirən qurumun bu gün azərbaycanlı gənclər klubları Moskvada və Sankt-Peterburqda deyil, Arxangelsk, Tver, İvanov, Yekaterinburq xəstəliyə "YOX" de" və digər müxtəlif məzmunlu layihələri təkcə Moskvanı deyil, RF-nin regionlarını da əhatə edir. Mövcud layihələrin gerçəkləşməsinin nəticəsi olaraq, mədəni-maarif və sosial-ictimai sahələrdə vətəndaşlıq şüurunun inkişafına təsirini göstərməkdədir. Belə layihələrin həyata keçirilməsi RAGT-ın uğurlarının, onun beynəlxalq proseslərə inteqrasiyasını sü-



və digər regionlarda fəaliyyətdədir. Gənclərin həyatının bütün istiqamətlərini müəyyən edən qurum Rusiya gənclərini, o cümlədən, ölkədə yaşayan Azərbaycan gənclərini Azərbaycanın tarixi, mədəniyyəti və ədəbiyyatı ilə getdikcə daha yaxından tanış edir. Bütün bunlarla yanaşı, ardıcıl olaraq, həyata keçirdiyi layihələr onun fəaliyyət istiqamətinin genişləndirilməsini əsaslandıran faktorlardır. Qurumun "Xocalıya ədalət", "Qanın milləti yoxdur", "Sağlamlığına əmin ol - rətləndirir. Dünya dövlətlərinə inteqrasiyada maraqlı olan qurum sivilizasiyaların və mədəniyyətlərin yaxınlaşmasına, beynəlxalq gənclər dialoquna, habelə, Rusiya-Azərbaycan münasibətlərinin möhkəmlənməsinə doğru addımlarını davam etdirir. Bütün bu cəhdlər öz nəticəsini verir.

Ətraf Mühitin Mühafizəsi Fəaliyyəti üzrə Beynəlxalq Dialoq kampaniyasının təsisçisi Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən layihələr sırasında planetimiz üçün əhəmiyyətli olan amillər də diqqətdə saxlanılır. Leyla Əliyeva "Biz hamımız Planetimiz üçün məsuliyyət hiss etməliyik" deməklə, ətraf mühitin mühafizəsi, planetimizin üzləşdiyi ekoloji təhlükənin aradan qaldırılmasının vacibliyini diqqətdə saxlayıb. İDEA-nın reallaşdırdığı layihələr sırasında "Bir planet - bir gələcək", "Böyük Qafqaz beşliyi" və s. əhəmiyyətlidir. Belə ki, "Böyük Qafqaz beşliyi" əsasında yox olmaq təhlükəsi ilə üzləşən beş heyvan növü müəyyən edilib. Bunlar ayı, qartal, canavar, ceyran və Qafqaz bəbiridir. İDEA bu problem barəsində Azərbaycan və dünya ictimaiyyətini maksimum məlumatlandırmağı və yox olmaq təhlükəsi qarşısında olan növlərin qorunub-saxlanması üçün konkret layihələr həyata keçirib. İDEA-nın "Daha yaşıl bir Azərbaycan üçün bizə kömək et!" devizi ilə ağacəkmə aksiyası çərçivəsində Eldar şamı, kiparis, Şərq çinarı və digər ağaclar əkilib. İDEA "Eko Ev" adlı layihəsi çərçivəsində isə enerji istehlakını azaldan, tullantıları utilizasiya edən və s. ekoloji amilləri nəzərə alan tədbirlər reallaşıb. Müasir dövrümüzdə artan enerji istehlakı və bununla əlaqədar atmosferdə karbon qazının miqdarının çoxalması ozon qatında dəliyin yaranmasına, böyüməsinə səbəb olur. Bu problem də Yer kürəsinin gələcəyi üçün çox böyük fəsadlar törədə bilər. İDEA Ətraf Mühit Kampaniyası "Atmosferin çirklənməsi ilə mübarizə üsulları" mövzusunda təşkil olunan interaktiv seminar da bu məqsədlə baş tutub.

Görülən işlərin davamı olaraq, bu günlərdə İDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın iştirakı ilə növbəti həyət sakinlərin ixtiyarına verilib. Ümumi sahəsi 1,4 hektar olan həyət Binəqədi rayonu, Abay Kunanbayev küçəsi 3, 3A, 5/13, 5B, 5V, 5A/15 və Süleyman Sani Axundov küçəsi 15/1 ünvanlarında 2650 nəfər sakinin yaşadığı beşmərtəbəli yeddi binanı əhatə edir.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud olan insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə süni örtüklü mini-futbol və basketbol meydançaları, müxtəlif idman qurğuları və uşaqlar üçün 3 oyun meydançası salınıb. Eyni zamanda, ərazidə 5 söhbətgah inşa edilib, çoxsaylı oturacaqlar, tullan-

# İDEA-nın layihələri uğurla reallaşır

## "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan iyirmi səkkizinci həyət istifadəyə verilib





həsi 1,4 hektar olan həyət Binəqədi rayonu, Abay Kunanbayev küçəsi 3, 3A, 5/13, 5B, 5V, 5A/15 və Süleyman Sani Axundov küçəsi 15/1 ünvanlarında 2650 nəfər sakinin yaşadığı beşmərtəbəli yeddi binanı əhatə edir.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud olan insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə süni örtüklü mini-futbol və basketbol meydançaları, müxtəlif idman qurğuları və uşaqlar üçün 3 oyun meydançası salınıb. Eyni zamanda, ərazidə 5 söhbətgah inşa edilib, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular quraşdırılıb, həyətdəki xeyir-şər evi əsaslı təmir olunub və bütün avadanlıqlarla təmin edilib.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunub, bloklara yeni dəmir qapılar və plastik pəncərələr quraşdırılıb. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 100 ağac, gül kolları əkilib və 3 min kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Həmçinin, sakinlərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə ərazidə müşahidə kameraları quraşdırılıb.

Binəqədi rayonunda sakinlərin istifadəsinə verilmiş həyət layihə çərçivəsində paytaxtımızda abadlaşdırılan iyirmi səkkizinci həyətdir. Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur.

Bu gün Ulu Öndərin ideyalarını yaşadan və təbliğ edən Heydər Əliyev Fondu Heydər Əliyevin irsini, ilk növbədə, mədəniyyətlə, humanitar inkişaf, elmlə bağlı ideyalarını inkişaf etdirməyə çalışaraq layihələrin reallaşmasına müvəffəq olur. Beynəlxalq miqyasda milli dəyərlərimizin, adət və ənənələrimizin təbliğinə nail olur. Azərbaycandan kənarda belə missiyanı üzərinə götürüb, onu həqiqətə çevirmək nə qədər məsuliyyətli iş olsa da, bir o qədər də şərəflidir. RAGT milli dövlətçilik ideyalarını yeni nəsillərə daim aşılayaraq Ulu Öndər Heydər Əliyevin ölkənin sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşması naminə müəyyən etdiyi, işləyib-hazırladığı siyasətin öyrənilməsinə, təbliğinə önəm yetirir. Rusiyanın müxtəlif regionlarında aktual mövzularla bağlı təşkil olunun konfrans və seminarlar, məhz bu məqsədə xidmət göstərir. Dini tolerantlığın bərqərar olmasına, vətəndaş cəmiyyəti quruculuğuna, qloballaşan dünyaya inteqrasiya prosesində milli-mənəvi dəyərlərin qorunub-saxlanılmasına dəstək olan RAGT fəaliyyətini birmənalı olaraq davam etdirməkdədir.

Göründüyü kimi, Azərbaycandan kənarda iri məzmunlu layihələrin əsasında bəşəriyyətə humanizm dəyərlərini əxz etmək, dinindən, dilindən asılı olmayaraq qeyri-millətləri dialoqa cəlb etmək kimi qlobal məhiyyət kəsb edən məsələlərin icrasında özünü təsdiqləyən fondun Rusiya nümayəndəliyi həyata keçirdiyi layihələri ilə əməli fəaliyyətini davam etdirir.

**Zümrüd BAYRAMOVA**








# Daşkəsən cari ilin birinci yarımilini uğurla başa vurub

*Bu fikirlər 2019-cu ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunan ümumrayon yığıncağında səslənib*

***Dünən Daşkəsən rayon icra hakimiyyətinin inzibati binasında cari ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunan ümumrayon yığıncağında bildirilib ki, rayon 2019-cu ilin birinci yarımilini uğurla başa vurub.***





Rayonun idarə, müəssisə, təşkilat rəhbərləri, RİHB-nin inzibati-ərazi dairələri üzrə nümayəndələri, bələdiyyə sədrləri və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi yığıncağı Daşkəsən rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyev açaraq hesabat məruzəsi ilə çıxış edib. O, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin son 16 il ərzində uğurlu siyasəti nəticəsində Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf etdiyin, əhalinin rifahının yüksəldiyini, xüsusilə, ölkəmizdəki sabitliyin, sürətli inkişafının, beynəlxalq miqyasda nüfuzunun əhəmiyyətli dərəcədə artdığını, yeni-yeni nailiyyətlər, qələbələr qazanıldığını bildirib.

Ə.Abıyev Daşkəsən rayonunda da 6 ay ərzində ümumi məhsul buraxılışının həcmi 92 milyon 420 min manat olmuşdur ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 125,3 faiz təşkil edir. Eyni zamanda, rayon ərazisində bir sıra tikinti, təmir-bərpa, yenidənqurma, abadlıq-quruculuq işləri görülmüşdür və hazırda da müxtəlif sahələrdə bu işlər davam etdirilməkdədir. Azərbaycan Hökuməti ilə İslam İnkişaf Bankı tərəfindən maliyyələşən "Daşkəsən şəhərinin su və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsinin həyata keçirilməsində son tamamlama işləri yerinə yetirilir. Cari ilin 6 ayı ərzində Daşkəsən şəhərində 10 çoxmərtəbəli yaşayış binasının dam örtüyü təmir edilmiş, 3 binanın fasadı əsaslı təmir edilərək emulsiya ilə rənglənmiş, 2 binanın giriş blokunun pilləkən qəfəsindəki pəncərələr metal plastik pəncərələrlə, blokların giriş qapıları isə metal qapılarla əvəz olunmuşdur. Heydər Əliyev meydanında və Şəhidlər Xiyabanında təmir işləri aparılaraq, səliqə-sahman işləri yerinə yetirilibdir. Xoşbulaq kənd tam orta məktəb və Qabaqtəpə kənd xəstəxana binalarının dam örtükləri tamamilə dəyişdirilib, İ.Nəsimi adına 1 nömrəli, N.Nərimanov adına 3 nömrəli, S. Vurğun adına 4 nömrəli və Qaraqullar kənd tam orta məktəblərində cari təmir işləri aparılıbdır".

Rayon rəhbəri 2019-cu ilin yanvar ayında Daşkəsən rayon icra hakimiyyəti üzrə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsi ilə razılaşdırılmış və "DOST İŞ Mərkəzi" MMC tərəfindən təqdim olunan 130 nəfər, aprel ayında isə əlavə 90 nəfər işsiz şəxslə müvafiq qanunvericiliyə uyğun olaraq müddətli əmək müqaviləsi bağlanılaraq rayonda ödənişli ictimai işlərə cəlb olunduğunu vurğulayıb. Rayonda 3 kartofçuluq və 1 taxılçılıq üzrə toxumçuluq təsərrüfatlarının fəaliyyət göstərdiyini deyən A.Abıyev "Yeni Daşkəsən" ideyası rayonun yüksəlişindən və Cənab Prezidentin yaratdığı inkişaf siyasətindən qaynaqlanır" fikrini söyləyən rayon rəhbəri qeyd edib ki, rayonun bütün daxili yollarının, körpülərin əsaslı təmiri üzrə rayon icra hakimiyyəti tərəfindən Respublika Nazirlər Kabinetinə, Baş Nazirə kompleks layihə təklifləri işlənib təqdim olunubdur: "Hazırda rayonun 49 yaşayış məntəqəsindən cəmi 10 yaşayış məntəqəsi təbii qazla təmin olunur. 2019-cu ilin 6 ayı ərzində rayonun Quşçu kəndində 404, Bayan kəndində isə 459 abonent təbii qazla təmin olunub. Quşçu, Quşçu körpü və Daşkəsən qəsəbələrinə yeni təbii qaz xəttinin çəkilişinə başlanılmış və hazırda həmin işlər sürətlə davam etdirilir".

Yığıncaqda RİHB-nin Daşkəsən şəhər İƏDÜN-si Nüsrət Vəliyev, RİHB-nin Daşkəsən qəsəbə İƏDÜN-si Xudayar Ələkbərov, 31 nömrəli Yol İstismarı MMC-nin rəisi Roman Əsgərov və digərləri çıxışlar edərək, qarşıda duran vəzifələrin icrasından danışaraq, daşkəsənlilərə göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyev Cənablarına minnətdarlıqlarını bildiriblər. Həmçinin, vurğulayıblar ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif edilən Daşkəsən rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyevin təltif olunmasını Möhtərəm Prezidentimiz tərəfindən bütün daşkəsənlilərə verilən yüksək qiymət kimi dəyərləndirildiyini söyləyiblər.

**RƏFİQƏ HÜSEYNOVA**

# Qaradağ rayon icra hakimiyyətinin Şura iclası keçirilib

*Şura iclasında cari ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr müzakirə olunub*

***Qaradağ rayonunun 2019-cu ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan Şura iclası keçirilib.***





İclasda Qaradağ rayon icra hakimiyyətinin başçısı Süleyman Mikayılov Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Sədrliyi ilə 2019-cu ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunan müşavirə barədə danışıb. Bildirib ki, respublikamızın bütün rayon və şəhərlərində olduğu kimi, Bakının Qaradağ rayonunda da sosial-iqtisadi inkişaf təmin edilib, abadlıq və quruculuq tədbirləri davam etdirilməkdədir: "Belə ki, rayon üzrə iqtisadiyyatın bütün sahələrində mövcud olan artım dinamikası saxlanılıb və uğurlu nəticələr əldə olunubdur. Sənaye sahəsində, cari ilin 6 ayı ərzində, 604 milyon 865 min manatlıq məhsul istehsal edilib. Əvvəlki ilin, müvafiq dövrü ilə müqayisədə, 18,6 faiz çox sənaye məhsulu istehsal edilib və xidmətlər göstərilibdir. Həmçinin, nəqliyyat sektorunda fəaliyyət göstərən müəssisələr tərəfindən 44 milyon 860 min manat həcmində xidmət göstərilib, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən, 13,9 faiz artım deməkdir. Hesabat dövründə istehlak bazarı dinamik inkişaf edərək, rayon əhalisinə 1 milyard 217 milyon 220 min manatlıq əmtəə satılıbdır ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən, 1,5 dəfə artım deməkdir".

S.Mikayılov, onu da vurğulayıb ki, mənzil fondunun yaxşılaşdırılması məqsədilə rayonun Lökbatan, Ələt, Sahil, Müşfiqabad, Qızıldaş və Sanqaçal qəsəbələrinin yaşayış binalarında, ümumilikdə, 32000 kv.m dam örtükləri təmir olunub, Lökbatan qəsəbəsi Əli Məhəmmədov küçəsində yerləşən 1 və 5 saylı binanın qarşısında salınmasına başlanmış yeni abad məhəllədə hazırda son tamamlama işləri aparılır. Ümumiyyətlə, rayonda abadlıq-quruculuq və yaşıllaşdırılma işləri, davamlı olaraq, aparılır. Bu isə, vətəndaşlarımızın rahat və firavan yaşamasına zəmin yaradan amildir.

**Rəfiqə HÜSEYNOVA**

# Daşkəsəndə növbəti səyyar qəbulu keçirilib

***Dünən Daşkəsən rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyevin növbəti səyyar qəbulu Əhmədli kəndində olub. Qəbulda rayon icra hakimiyyəti başçısı aparatının məsul əməkdaşları, hüquq-mühafizə orqanlarının, aidiyyəti idarə, müəssisə və təşkilatların rəhbərləri və kənd sakinləri iştirak ediblər.***



Görüşdə çıxış edən Daşkəsən rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyev kənd sakinlərinin həyat səviyyəsinin yüksəldilməsi istiqamətində Prezident İlham Əliyev tərəfindən qarşıya qoyulan vəzifələr haqqında geniş məlumat verib, həyata keçirilən tədbirlər barədə danışıb, kənd təsərrüfatının ayrı-ayrı sektorlarının, o cümlədən, turizmin inkişafı istiqamətində ərazidə görüləcək işlərdən söz açıb.

Rayon rəhbəri, xüsusilə, vurğulayıb ki, ötən dövrlərdə Əhmədli kəndinin də yerləşdiyi ərazi vahidliyində xeyli abadlıq-quruculuq işləri görülmüşdür. Qəbulda sakinlər tərəfindən rayon mərkəzindən kəndə gələn avtomobil yolunun asfaltlaşdırılması, əlavə içməli su və təbii qaz xəttinin çəkilməsi, nasaz elektrik dirəklərinin dəyişdirilməsi və digər şəxsi məsələlər qaldırılıb. Rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyev sakinlərin müraciətlərinin həlli ilə bağlı aidiyyəti üzrə tapşırıqlarını verib. Əksər müraciətlər yerində həll edilib, bəzilərinin icrası isə nəzarətə götürülüb. Kənd sakinləri vətəndaşlara göstərilən diqqət və qayğıya görə, ölkə Prezidentinə minnətdarlıqlarını bildiriblər.

**RƏFİQƏ**

# Paşinyanın başından böyük qələt...

## *İşğalçı ölkənin baş naziri Xankəndidə "Ermənistanın Dağlıq Qarabağa iddiası" onu gülünc vəziyyətə saldı*

***Ermənistanın küçədən baş nazir kürsüsünə gələn Nikol Paşinyan elə ilk gündən hansı "ağılın" sahibi olduğunu nümayiş etdirməkdədir. Bu isə həm ölkədə gərginliyi, həm də küçə "demokratına" qarşı inamsızlıqla yanaşı, Paşinyana qarşı ayrı-ayrı qüvvələrin yaranmasına səbəb olur.***



Artıq erməni ictimaiyyətinin narazılıqları, ölkədə baş verən ardıcıl mitinqlərin keçirilməsi Paşinyanın canına vicvicə salıb. Elə bu qorxu ilə özünü sığortalapmaq üçün avqustun 5-də Xankəndiyə gedərək mitinqçilər qarşısında populist sərsəm bəyanatlar səsləndirilib. Ermənistanın "Past" nəşri xəbər verir ki, dəyişikliklər xüsusi ilə müxalifət seqmentində gözlənilir. Nəşr yazır ki, hazırda ölkədə partiyalar arasında gizli müzakirələr gedir. Lakin artıq bu ilin oktyabr ayında 7 müxalif partiyasının konsolidasiyası haqqında bəyanat verilə bilər. Nəşr vurğulayır ki, realda isə hakimiyyətə qarşı birləşən siyasi güclərin ümumi sayı 20-ni keçəcək.

### Koçaryan vaxt verdi: "Bu hakimiyyət çox qalmayacaq"

Partiyalar, eyni zamanda, həmin vaxt öz gündəliklərini də açıqlayacaqlar. Belə ki, gündəlikdə onların atacağı addımların ardıcıllığı və siyasi məqsədləri təqdim olunacaq. Nəşr yazır ki, yeni müxalifət blokuna olduqca görkəmli erməni siyasi xadimlər, həmçinin, bir sıra ictimai təşkilatların və ekspert birliyinin tanınmış simaları da daxil olacaq.

Bu ilin iyulun 30-da Ermənistanın sabiq prezidenti Robert Koçaryan bildirmişdi ki, Ermənistan rəhbərliyi hakimiyyətdə çox qalmayacaq və yenidən seçilmə perspektivinə malik deyil. O, əminliyini ifadə edib ki, hakimiyyət məsələsi istənilən halda küçədə - növbədənkənar parlament seçkilərində həll olunacaq: "Bu cür idarəetmə keyfiyyəti ilə bu rəhbərlik hakimiyyətdə çox qalmayacaq və yenidən seçilmə perspektivinə malik deyil. Seçici həmin vaxt populistlərdən təngə gələcək və öz seçimində daha diqqətli olacaq".

### Paşinyan Dağlıq Qarabağın Ermənistana "aid olduğunu" ilk dəfə bəyan edib

Ermənistanın Baş naziri Nikol Paşinyanın Qarabağa qanunsuz səfəri: idman üzərindən siyasi oyunlardan başqa bir şey deyil. Və Ümumerməni Oyunların keçirilməsiylə bağlı Xankəndiyə (Stepanakert) gələrək, orada Ermənistanın Dağlıq Qarabağa iddiasını indiyədək erməni rəsmilərinin dilə gətirmədiyi açıqlığı ilə ortaya qoymaqla, bir daha çatını öz əli ilə boynuna salmaq deməkdir. İdman tədbirinin açılışında çıxış edən Paşinyan Dağlıq Qarabağın Ermənistanın olduğunu vurğulayıb. Ən gülünc məqam isə, Paşinyanın Ermənistanın gələcək 30 ilin inkişaf perspektivləri barədə danışmasıdır. Özü də çıxışlarında "Artsax Ermənistandır, vəssalam" ifadəsini səsləndirməsidir. Paşinyanın sözlərinə görə, Ermənistan və Dağlıq Qarabağ hökumətləri üçün "yalnız Ermənistan və Qarabağ xalqları tərəfindən" təqdir edilən danışıqların yekunları əsasında qəbul olunmuş istənilən həlli məqbul hesab edilə bilər.

### Sərsəm baş nazirə rəsmi Bakıdan tutarlı cavab

Bu sərsəm baş baş nazirin sərsəm bəyanatlarını rəsmi Bakı cavabsız qoymadı. Azərbaycan XİN-i Paşinyanın bəyanatlarını "aqressiv" adlandıraraq, onların Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə aparılan danışıqlar prosesinə "böyük zərbə" vurduğunu qeyd edib. "N.Paşinyanın Xankəndidə etdiyi çıxışı onun həqiqi simasını üzə çıxarmış oldu" Azərbaycanın xarici diplomatiya idarəsi vurğulayıb.

Rəsmi Bakı XİN xəttiylə verdiyi bəyanatında Dağlıq Qarabağın ərazi mənsubluğu qeyd olunan beynəlxalq sənədlərə istinad edib: "Bütün beynəlxalq ictimaiyyət işğal olunmuş Dağlıq Qarabağ və ətraf bölgələrimiz də daxil olmaqla, Azərbaycanın beynəlxalq tanınmış sərhədləri çərçivəsində suverenliyi və ərazi bütövlüyünü tanıyır. Ölkəmizin ərazi bütövlüyünə birmənalı dəstək istər, BMT TŞ-nin müvafiq qətnamələri, digər beynəlxalq təşkilatların qərar və qətnamələrində, istərsə də ikitərəfli əsasda qəbul edilmiş çoxsaylı sənədlərdə öz əksini tapıb".

Ekspertlərin fikrincə, Paşinyanın mitinq şousu "Qarabağ klanı"na qarşı hazırlanıb. Məqsəd siyasi rəqibi bir qədər də zəiflətmək, tamamilə xalqın gözündən salmaq, eyni zamanda, baş nazirdən islahat gözləyən ac ermənilərin başını qatmaqdır.

Ekspertin sözlərinə görə, maddi rifah halı bərbad olan erməniləri populist çıxışlarla və xam xəyallarla yuxuya vermək üçün mitinqlər ən gözəl vasitədir: "Paşinyan küçələrdən gəlmiş bir adam kimi bu metoddan ustalıqla yararlanır. Yəni ona dəstək verənləri daha iki-üç ay "xəyal plovu" yeməyə vadar edir. Əslində, özü də yaxşı bilir ki, müxalifətdə olarkən verdiyi vədlərin böyük əksəriyyətini reallaşdırmaq mümkün deyil. Çünki bunu etmək üçün lazımi resurslar yoxdur. Ona görə də, yerində saymaqda davam edir. Paralel olaraq klanlararası savaş da şiddətlənir. Hələlik, bu mübarizədə Paşinyanın əli gücü görünür. "Qarabağ klanı"nı əzmək üçün biri-birinin ardınca müxtəlif metodları işə salır. Ancaq istənilən halda, qarşılıqlı mübarizə prosesində, bütövlükdə, Ermənistan ciddi surətdə zərbə alır və zəifləyir".

### Paşinyan Sarkisyanın sirlərini açır: Azərbaycan üçün ipucları...

Başını itirən Nikol Paşinyan Ermənistanda heç bir sirr qoymadı. Serj Sarkisyanın hakimiyyəti dövründə 2016-cı ilin aprel döyüşləri haqqında danışmırdılar, bu mövzuya qeyri-rəsmi qadağa var idi. N.Paşinyan isə Ermənistanda inqilab yolu ilə hakimiyyətə gələr-gəlməz, ordudakı korrupsiyadan danışmağa başladı. Daha sonra Paşinyana yaxın deputatlardan biri aprel döyüşlərində Ermənistanın itkilərinin 500-ü aşdığını vurğuladı. Halbuki itkilər mövzusu da Ermənistanda tabu idi. Növbəti sirr isə, 2014-cü ildə Ermənistan hakimiyyəti üçün hazırlanan gizli hesabatda ölkədəki dövlət strukturlarının faciəvi durumda olduğunu bildirməsi oldu. Və bu hesabatı oxuyanda, bu nəticəyə gəlirsən ki, Ermənistanda heç bir problemi həll etmək mümkün deyil. Və bunu Paşinyan da dedi: "Dövlət strukturları iflic vəziyyətdədir və bunda keçmiş hakimiyyət günahkardır. Dövlətimiz uğursuzluğa düçar olub".

Ən maraqlı məqam isə Nikolun açıqlamasının son cümələsidir: "Hakimiyyətə gələndə, elə bilirdim ki, heç olmasa, işləyə bilən qurumlarımız var. Ancaq işin gedişatında anladım ki, yanılmışam, vəziyyət acınacaqlıdır. Biz dövlət institutlarını sıfırdan yaratmağa başlamalıyıq".

### Bəs Nikol Paşinyan bu hesabatı niyə indi faş edir?

Politoloqların sözlərinə görə, görünür, Nikol Paşinyan keçmiş hakimiyyətin yartmaz fəaliyyətindən irəli gələrək vəziyyətin acınacaqlı olduğunu ona görə indi cəmiyyətə anladır ki, vətəndaşlar ondan yaxın zamanda problemlərin həllini gözləməsinlər və onu günahkar saymasınlar.

Ekspertlərin sözlərinə görə, N.Paşinyanın etirafları Azərbaycan üçün müəyyən ipucları verir. Paşinyanın dili ilə desək, Ermənistan dövlətinin uğursuzluğa düçar olmasının başlıca səbəbi işğalla əlaqəlidir. İndi bunu Paşinyana daha geniş şəkildə anlatmaq lazımdır: bu izahın siyasi, iqtisadi və hərbi yolları var. Və Nikolun Xankəndidəki etirafları isə yeni müharibəyə zəmin yaratdı...

Görünən odur ki, bütün regional layihələrdən, inteqrasiya proseslərindən kənarda qalan Ermənistan işğalçılıq siyasətindən əl çəkməyənə qədər istənilən hakimiyyət dəyişikliyi bu ölkədəki problemləri aradan qaldırmaq iqtidarında deyil.

***A.SƏMƏDOVA***

## "Paşinyan sərsəm fikirlərlə özünə bəraət qazandırmağa çalışır"



"Ermənistanın baş naziri Nikol Paşinyan işğal olunmuş ərazilərimizə səfəri zamanı bir daha göstərdi ki, o olduqca qeyri-ciddi və parodoksal bir şəxsdir. Nəyə görə? Birincisi, onun səsləndirdiyi fikirlər ondan xəbər verir ki, Paşinyanın dünyagörüşü olduqca dardır. Beləki Paşinyan özü də bilmədən Ermənistanın işğalçı dövlət olduğunu bəyan etdi. Yəni, Azərbaycanın ərazisi olan Qarabağ, Ermənistan tərəfindən işğal altında saxlanılan ərazilər Ermənistanın ərazisi kimi təqdim olunur". Bunu SİA-ya açıqlamasında politoloq Elşad Mirbəşiroğlu deyib.

Politoloqun sözlərinə görə, Paşinyan bununla göstərir ki, Ermənistan Qarabağı işğal edib və işğalçı ölkədir: "Halbuki son dövrlərə kimi Paşinyan qeyd edirdi ki, Ermənistan separatçı rejim adından çıxış edə bilməz. Amma faktiki olaraq o öz fikirlərinin əksinə gedərək bəyan edir ki, Qarabağ da Ermənistanındır. Bu məsələnin bir tərəfi. Digər tərəfdən isə Paşinyan bu fikirləri daxili auditoriyaya yönəlik səsləndirib. Yəni nə qədər məsuliyyətsiz fikirlər olduğunu özü də dərk etmədən daxili auditoriyaya yönəlik fikirlər səsləndirib. Paşinyan hakimiyyətə gələn zaman kütlə qarşısında verdiyi sözlərin heç birini yerinə yetirə bilməyib və özünə bəraət qazanmaq üçün müxtəlif yollar axtarır. Hesab edirəm ki, onun Xankəndində də səsləndirdiyi sərsəm fikirlər özünə müəyyən mənada bir bəraət qazandırmaqdır. Hətta o qeyd etdi ki, əlində 2014-cü ilə aid olan bir məxvi sənəd var. Amma Paşinyan sənədin mahiyyətini tam açmır. Sadəcə olaraq qeyd edir ki, bu sənəddə Ermənistanın institusional vəziyyətinin olduqca acınacaqlı durumu əksini tapıb. Bu vəziyyətin düzəldilməsi bir il müddətində mümkün olmayacaq. Bütün bunlar ondan xəbər verir ki, Paşinyan olduqca çıxılmaz bir vəziyyətdədir. Yeri gəlmişkən Paşinyan öz fikirlərini həm də təkzib etdi. O bildirdi ki, fikirləri təhrif olunub və o cür demək istəməyib. Bütün bunlar bir daha onu göstərir ki, Paşinyannın yanaşmaları, fikirləri məsuliyyətsiz fikirlərdir və o qeyri-ciddi bir siyasətçidir".

## Rusiyadan gələn avtomobildə külli miqdarda tibbi maddə və ləvazimatlar aşkar edilib



Şimal Ərazi Baş Gömrük İdarəsinin Əməliyyat və təhqiqat şöbəsinə daxil olan məlumat əsasında, "Xanoba" gömrük postunun idxal-gömrük nəzarəti xəttinə Rusiya Federasiyası istiqamətindən daxil olan həmin ölkə vətəndaşının idarə etdiyi "Lada Priora" markalı avtomobilə gömrük baxışı keçirilib.

Dövlət Gömrük Komitəsindən SİA-ya verilən məlumata görə, yoxlama zamanı nəqliyyat vasitəsinin yük yerində olan qaz balonunun orta hissəsində və avtomobilin salonunda maqnitofon üçün nəzərdə tutulan yerin arxasındakı boşluqlarda gömrük nəzarətindən gizlədilən, stomatologiya sahəsində istifadə edilən 10 adda 1131 ədəd tibbi maddə və ləvazimatlar aşkarlanıb. Faktla bağlı araşdırma aparılır.

## DİN: Axtarışda olduğuna görə 27 nəfər saxlanılıb



Ötən gün törədilmiş 21 cinayətin üstü respublikanın daxili işlər orqanları tərəfindən "isti izlər"lə açılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlki dövrlərdən bağlı qalmış doqquz cinayətin açılması təmin olunub. Axtarışda olduğuna görə ümumilikdə 27 nəfər, o cümlədən borclu şəxs qismində axtarılan 14 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Respublikanın avtomobil yollarında baş vermiş dörd ağır yol-nəqliyyat hadisəsi nəticəsində dörd nəfər ölüb. Daxili işlər orqanları əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklə əlaqəli 12 fakt müəyyənləşdirilib. Cinayət törətməkdə şübhəli bilinən 29 nəfər saxlanılıb.

# "Paşinyanın təxribatının cavabı verilməlidir"

## Eldəniz Səlimov: *"Nikol Paşinyan bu addımı ilə cinayətkar Koçaryan və Sarkisyandan heç nə ilə fərqlənmədiyini göstərdi"*

***- Eldəniz müəllim, Nikol Paşinyanın Dağlıq Qarabağa səfəri və orada mitinqçilər önündə separatçı çıxışlar etməsini daxili auditoriyaya hesablanan populist çıxışlar hesab etmək olarmı?***



*Müsahibimiz millət vəkili Eldəniz Səlimovdur*

- Hesab edirəm ki, nəinki işğalçı və təcavüzkar ölkənin rəhbərinin, bütövlükdə, heç kəsin Azərbaycanın rəsmi icazəsi və razılığı olmadan işğal altında olan Dağlıq Qarabağa səfəri, orada qondarma və separatçı rejimlə bir araya gəlməsi, işbirliyi qurması, yaxud orada hansısa tədbirinin keçirilməsinə cəhd edilməsi yolverilməzdir, qəbulolunmazdır, bağışlanılmazdır, qanunsuzdur, beynəlxalq hüquq normalarının açıq və kobud şəkildə pozulmasıdır, cinayət əməlidir. Dağlıq Qarabağ və ona bitişik bir neçə rayon, 26 ildən çoxdur ki, Ermənistan tərəfindən işğal altındadır, həmin ərazilərdə Azərbaycanın suveren hüquqları açıq və kobud şəkildə pozulub və tapdalanıb. İşğalçı Ermənistan və onun havadarlarının yaratdığı qondarma və separatçı rejim də bu illər ərzində irəliyə, konstruktivliyə, münaqişənin sülh və danışıqlar yolu ilə həllinə doğru bircə addım olsun belə atmayıblar, əksinə, münaqişənin həllinin uzadılmasına, status-kvonun qalmasına, ədalətin, sülhün bərpa olunmasına qarşı fəaliyyət göstərib, bu yöndə hər cür təxribatçılıq əməllərinə əl atıblar.

***- Münaqişənin sülh yolu ilə həllində vasitəçilik missiyasını həyata keçirən ATƏT-in Minsk Qrupunun həmsədrlərinin Paşinyanın təxribatçı çıxışlarına susqunluqla yanaşmaları nədən irəli gəlir?***

- Dünya ictimaiyyəti, beynəlxalq birlik, ATƏT-in Minsk Qrupu və həmsədrləri, sadəcə, seyrçi, laqeyd, etinasız mövqe nümayiş etdirməklə məşğul olurlar. Onlar Ermənistanın, qondarma rejimin cəzalandırılması üçün heç bir əməli və tutarlı addım atmayıblar, əksinə, bir çox hallarda işğalçı və təcavüzkarı, qondarma rejimi növbəti fitnəkarlıqlara stimullaşdırıblar, işğalçı ilə işğala məruz qalanı eyniləşdiriblər. İşğal altında olan Azərbaycan torpaqlarına qanunsuz səfərlərə saymazyana münasibət göstəriblər, özlərini görməzliyə, eşitməzliyə vurublar. Dəfələrlə bu və digər ölkələrin, bəzi beynəlxalq qurumların, xarici şirkətlərin nümayəndələri, elə Minsk Qrupuna daxil olan dövlətlərin özlərinin bir sıra təmsilçiləri, siyasət, dövlət, iş, sənət adamları Azərbaycanın heç bir razılığı və icazəsi olmadan Dağlıq Qarabağa qanunsuz səfər ediblər, Azərbaycanın qanunlarını və beynəlxalq hüquq normalarını açıq-aşkar şəkildə tapdalayıblar. Bununla da, bağlı Azərbaycan dövləti Xarici İşlər Nazirliyi səviyyəsində dəfələrlə öz kəskin etirazlarını, xəbərdarlıqlarını bəyan edib, Dağlıq Qarabağa qanunsuz səfər edən və orada işbirliyinə gedənləri "arzuolunmaz şəxslər" siyahısına-"qara siyahı"ya salıb. Əməllərindən səmimi şəkildə peşman olanları, səhvlərini rəsmi şəkildə etiraf edənləri isə bağışlayaraq, həmin siyahılardan çıxarıb. Amma çox təəssüflər olsun ki, Dağlıq Qarabağa qanunsuz səfərlər yenə də davam edir, yenə də orada qanunsuz görüşlər, mərasimlər, tədbirlər keçirilir, yenə də dünya birliyi, beynəlxalq qurumlar, ən əsası, Minsk Qrupu və həmsədrlər səssiz qalır, susur, görməzdən-eşitməzdən gəlirlər. Bu isə bir çoxlarını növbəti qanunsuzluğa, cinayət əməllərinə həvəsləndirir və şirnikləndirir. Odur ki, işğalçı və təcavüzkar Ermənistanın hərdəmxəyal, bir sözü ilə o biri sözü düz gəlməyən, gah "Qarabağ münaqişəsinin bizə aidiyyatı yoxdur, bu, Azərbaycanla Dağlıq Qarabağ erməniləri arasında baş verən münaqişədir, özləri münaqişəni tərəflər olaraq həll etsinlər", gah da "Qarabağ Ermənistanındır, Ermənistana birləşdirilməlidir" və sair deyən, sərsəmləyən Nikol Paşinyanın Azərbaycanın işğal olunmuş ərazilərinə növbəti dəfə səfər, Xankəndidə mitinq keçirərək, münaqişənin alovlandırılmasına yönəlik çıxış etməsi, fikirlər söyləməsi, həmçinin, "ümumerməni oyunları" adlı cəfəng və bədnam tədbirin keçirilməsinə cəhd göstərilməsi həyasızlıqdır, boşboğazlıqdır, qanunsuzluqdur, ən əsası, cinayət əməlidir. Paşinyan bu addımı ilə özündən əvvəlki cinayətkar Ermənistan rəhbərlərindən, Koçaryan və Sarkisyandan heç nə ilə fərqlənmədiyini göstərdi, bu səfəri ilə növbəti cinayət əməlinə əl atdı, növbəti dəfə beynəlxalq hüquq normalarına açıq-aşkar saygısızlığını nümayiş etdirdi, beynəlxalq hüquqa meydan oxudu.

***- Paşinyanın təxribatlarına sərt cavab verilməsinin məqamının yetişdiyini demək olarmı?***

- Hesab edirəm ki, Paşinyanın bu əməlinin, bu təxribatının cavabı verilməlidir, özü də onun anladığı və anlayacağı bir dildə. Xüsusilə də, münaqişənin illərdir uzadılmasına, uzanmasına səbəb olan Minsk Qrupu və həmsədrlər Ermənistan rəhbərinin bu qanunsuz, cinayət, təxribatçılıq əməllərinə, həyasızlığına ciddi şəkildə reaksiya göstərməli və öz cəza, təzyiq, təsir mexanizmlərini işə salmalıdırlar. Artıq onların yalançı vədlərindən, boşboğazlıqlarından bezmişik. Nəhayət, öz qəti sözlərini deməli, haqq, etiraz səslərini ucaltmalı, Ermənistanı, onun cinayətkar rəhbərliyini, siyasi elitasını növbəti cinayət əməllərindən birdəfəlik çəkindirməlidirlər. Azərbaycan xalqı və dövləti öz Ordusu ilə Ali Baş Komandanın istənilən əmrinə istənilən an hazırdır. Azərbaycan xalqı, Azərbaycan dövləti, Azərbaycan Ordusu Ali Baş Komandanın əmri ilə, 2016-cı ilin aprel hadisələrində olduğu kimi, yenə də günlərin birində və bir an içində öz gücünü, öz qətiyyətini göstərməyə qadirdir. Bunu Ermənistan da, ermənilər də, onların açıq-gizli havadarları da çox yaxşı bilirlər. Yaxşı bilirlər ki, Azərbaycan istənilən anda istənilən yolla öz torpaqlarını azad etmək qüdrətindədir və bir gün də bunu edəcək, bir daha öz qüdrətini nümayiş etdirəcək, Ermənistana, separatçıların lazımi cavabını verəcək. Ancaq biz yenə də qan axıdılmasının, müharibə variantının əleyhinəyik, istəyirik ki, münaqişə sülh və danışıqlar yolu ilə ədalətli şəkildə həllini tapsın. Odur ki, avantürist erməni siyasətçiləri və rəhbərləri və başda da Paşinyan olmaqla - bir an olmayan ağıllarını başlarına toplamalı, Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfərləri, qanunsuz tədbirləri durdurmalı, işğala və təcavüzə son qoymalıdırlar. Etməsələr, özləri peşman olacaqlar.

**GÜLYANƏ**



# Ancelina Coli: "Dünyanın daha güclü qadınlara ehtiyacı var"

Məşhur amerikalı aktrisa, BMT-nin qaçqınlar üzrə xüsusi elçisi Ancelina Coli bildirib ki, müasir dövrdə dünyanın daha güclü qadınlara ehtiyacı var. Bəşər tarixinin başlanğıcından zərif cinsin nümayəndələrinin daim əzildiyi və qadın toplumunun öz taleyi ilə barışdığını diqqətə çatdıran xanım Coli vurğulayıb ki, bu ürəksıxıcı mənzərəyə son qoyulmalıdır. Aktrisa Elle Magazine nəşrinə yazdığı essedə qeyd edib: "İşimlə bağlı dünyanın bir çox ölkələrinə səyahət etmişəm və elə yerlər olub ki, düşünmüşəm: bu ölkənin vətəndaşı olsaydım inanclarıma və qadın olduğuma görə həbsxanaya düşə, yaxud psixi vəziyyətim pisləşə bilərdi. Qadın hüquqlarının müdafiəçiləri bütün dünyada siyasi baxışlarına görə təqiblərə məruz qalırlar və özlərini müdafiə etmək üçün daha güclü olmaq məcburiyyətindədirlər. Dünyaya nəzər saldıqda bir sual meydana çıxır; nədən zərif cinsin nümayəndələrini ikinci planda saxlamaq üçün bu qədər böyük səylər göstərilir?"

# "Ermənistan baş nazirinin bəyanatı dünya ictimaiyyətində çaşqınlıq yaratmaq üçün edilən növbəti cəhddir"



Bu gün Ermənistan Xarici İşlər Nazirliyi avqustun 5-də Azərbaycanın işğal olunmuş ərazilərində çıxış edərkən Dağlıq Qarabağın Ermənistana məxsus olduğunu deyən və "miatsum"-"birləşmə" şüarından istifadə edən baş nazir Nikol Paşinyanın bəyanatını təkzib etməyə cəhd göstərib. Məhz bu şüarla erməni millətçiləri 1988-ci ilin fevralında qanlı münaqişəyə başlamışdılar. Ermənistan XİN-in bəyanatına əsasən isə söhbət mənəvi birləşmədən gedir. Məgər onlar Ermənistan silahlı qüvvələrinin harada yerləşdirildiyini, Azərbaycanın işğal olunmuş torpaqlarında ölən erməni əsgərlərinin harada xidmət etdiklərini görmürlər?

AZƏRTAC xəbər verir ki, bu fikirlər Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin sədri Fərid Şəfiyevin Ermənistanın baş nazirinin və Xarici İşlər Nazirliyinin bəyanatlarına şərhində yer alıb. "Biz Ermənistanda yüksəkvəzifəli şəxslərin və dövlət strukturlarının bir-birilərinə zidd fikirlər səsləndirmələrinin ilk dəfə şahidi olmuruq. Belə ki, 2019-cu il martın sonlarında Vyanada yüksək səviyyəli danışıqların nəticəsində Ermənistan baş nazirinin Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli perspektivlərinə dair bəyanatından sonra müdafiə naziri David Tanoyan Nyu-Yorkda "yeni ərazilər uğrunda yeni müharibə"yə dair bəyanat səsləndirdi.

İlk gündən Azərbaycanda bilirdilər ki, qondarma "Qarabağ hərəkatı" Azərbaycan torpaqlarının erməni milliyyətçiləri tərəfindən ilhaqı məqsədilə başladılmış kampaniyadır. Bununla əlaqədar olaraq, 1989-cu il dekabrın 1-də Ermənistan SSRİ Ali Sovetinin o zamankı parlamenti tərəfindən Dağlıq Qarabağın birləşdirilməsinə dair məşhur fərman imzalandı. SSRİnin süqutundan sonra erməni millətçiləri taktikanı bir qədər dəyişdilər və bir tərəfin digər tərəfə ərazi iddiasının beynəlxalq ictimaiyyətdə mənfi reaksiyaya səbəb olacağını düşünərək, özlərinin müstəqillik ideyalarına beynəlxalq müşahidəçilərin rəğbətini qazanmaq məqsədilə beynəlxalq arenaya Dağlıq Qarabağın öz müqəddəratını təyinetmə şüarını buraxdılar. BMT və digər beynəlxalq təşkilatlar isə Dağlıq Qarabağı Azərbaycanın bir hissəsi olaraq tanıdılar", - deyə F.Şəfiyev bildirib.

Mərkəzin sədri vurğulayıb ki, erməni təbliğatçılarının bütün cəhdləri, o cümlədən qondarma "Dağlıq Qarabağ respublikası"nın "liderləri"nin Avstraliyaya səfəri uğursuzluğa düçar olur. Bu ölkənin Xarici İşlər Nazirliyi yenidən öz bəyanatında Azərbaycanın ərazi bütövlüyünü qeyd-şərtsiz dəstəklədiyini ifadə etdi.

Ermənistan rəhbərliyinin hərbi təcavüzü legitimləşdirmək cəhdlərinin heç bir perspektiv vəd etməyəcəyini, Azərbaycanla sülh əldə olunmasa, sosial-iqtisadi inkişafın mümkünsüzlüyünü anlaya bilməməsi təəssüf doğurur. Regionun gələcəyi dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində, sülh şəraitində birgə yaşamasından asılıdır. Dağlıq Qarabağda sülh erməni və azərbaycanlı icmaların Azərbaycanın ərazi bütövlüyü çərçivəsində birgə yaşamasına əsasən olmalıdır. Ermənistan baş nazirinin və Xarici İşlər Nazirliyinin bəyanatı ATƏT-in Minsk qrupu həmsədrlərinin fəaliyyətinə hörmətsizliyin təzahürüdür və dünya ictimaiyyətində çaşqınlıq yaratmaq üçün edilən növbəti cəhddir.

# "Paşinyan yarımfabrikat siyasətçidir"



"Ümumiyyətlə Azərbaycan Xarici İşlər Nazirliyi Ermənistan baş naziri Nikol Paşinyanın sərsəm fikirləri ilə bağlı BMT-yə müraciət etməlidir. Çünki ATƏT-in Minsk Qrupu var və Ermənistan işğalçı tərəf kimi biz tərəfdən tanınsa da Paşinyanın bu hərəkətinə görə onu beynəlxalq məhkəməyə vermək lazımdır". Bunu SİA-ya açıqlamasında politoloq Cümşüd Nuriyev deyib.

Politoloqun sözlərinə görə, Paşinyan nəinki Ermənistanın Konstitusiyasına hətta beynəlxalq qanunlara da əməl etmir: "Yeni bu gözlənilən bir şeydir. Çünki bu şəxs küçədən gələn bir siyasətlə məşğul olan adamdır. Mən hətta ona yarımfabrikat siyasətçi deyərdim. Bu adam çox həyasızlaşıb. O, Ermənistanın daxili problemlərini bilavasitə diqqətdən yayındırmaq üçün bu cür mütəmadi ucuz şoular edir. Məsələn, o "sərhədi keçəlim" mahnısı ifa edir və yallı gedir. Ümumiyyətlə köçəri də, yallı da və torpaq da bizimdir. Təəssüf ki, Paşinyanın bu hərəkətinə ATƏT-in həmsədr dövlətləri də göz yumur. Ona görə də biz Azərbaycan tərəfi olaraq bunlardan nəticə çıxarmalıyıq və dövlətimizin yanında olmalıyıq. Bütün hallarda Ermənistanın bu həyasızlığı ilə bağlı təkcə dövlət yox, QHTlər, siyasi partiyalar bəyanatlar verməlidir. Nə sağda, nə də solda bu işlə bağlı heç bir bəyanat verilməyib. Onlar hamısı gözləyir ki, hər şeyi Prezident etməlidir. Prezident sözünü də deyib və bəyanatını da verib. Bəs bu 10 milyon xalq nəylə məşğul olmalıdır? Axı bu şəkildə olmaz. Bu gün təkcə yazılı media deyil, görüntülü media da buna öz münasibətini bildirməlidir. Nə qədər ki, biz informasiya müharibəsini uduzuruq, Paşinyan da öz həyasızlığını edəcək".

**Ceyhun Rasimoğlu**

# Qənimət Zahid Nikol Paşinyanın bəyanatına dəstək verdi

## *Antimilli ünsürlər bu dəfə Azərbaycan Ordusunu hədəfə aldı*

Ermənistanın baş naziri Nikol Paşinyanın işğal olunmuş ərazilərimizə qanunsuz səfəri çərçivəsində Xankəndidə keçirilən mitinqdə Dağlıq Qarabağı Ermənistanın ərazisi adlandırması digər bir nüansı diqqətdən yayındırmadı. Belə ki, məhz həmin gün Fransada "siyasi mühacir" adı altında və erməni lobbisinin, xüsusilə də, Sorosun dəstəyi ilə "Youtube" sosial şəbəkəsində canlı yayıma çıxan Qənimət Zahid Azərbaycan Ordusuna qarşı əks-təbliğat kampaniyası apardı. "Sözarası" verilişində saxta, heç bir sübuta və fakta əsaslanmayan "Qürurundan sındırılmış əsgər" (?!-R.N.) adlı sərsəm mövzusuyla özü kimi ünsürlərin qarşısına çıxan Q.Zahid hər vəchlə isbatlamağa çalışdı ki, demə, aprel müharibəsində əldə edilən şanlı qələbəmiz heç də şücaətlər, qəhrəmanlıqlar bahasına qazanılmış zəfər deyilmiş və s...







### Qənimət Zahidin tələm-tələsik Azərbaycan Ordusu əleyhinə erməni dəyirmanına su tökən veriliş hazırlaması təsadüf hesab oluna bilərmi?

Oxucularımızın diqqətinə onu da çatdırım ki, Q.Zahidin canlı yayımındakı qonaqları hərbi cinayətlər törətmiş, müharibə vəziyyətində vəzifələrinin öhdəsindən gələ bilməmiş, hərbi yoldaşlarını pis vəziyyətdə qoyaraq, sözün əsl mənasında, xəyanət etmiş və müvafiq cəzalarını almış hərbçilərin valideynləri olublar. Müxtəlif bəhanə və yalanlarla Silahlı Qüvvələrimizə qarşı şər və böhtan xarakterli fikirlər səsləndirən həmin şəxslər, bilavasitə Q.Zahidin yönləndirdiyi sualları cavablandıraraq, onun istədiyi cavabları veriblər. Ona görə də, belə bir sual yaranır - məgər bütün bunlar - Nikol Paşinyanın Xankəndidə Dağlıq Qarabağı Ermənistan ərazisi adlandırması, həmin günün axşamı isə, Qənimət Zahidin dərhal, tələm-tələsik Azərbaycan Ordusu əleyhinə erməni dəyirmanına su tökən veriliş hazırlaması təsadüf hesab oluna bilərmi? Əsla! Çünki biz, onu da bilirik ki, Q.Zahid AXCP sədri Əli Kərimlinin mühacirətdəki "sağ əlidir" və bütün planlaşdırılmalar, canlı yayımlar və mövzular onun tərəfindən aparılır.

### Ortada düşmən əlinə verilən "bayraq" var

Yeri gəlmişkən, biz onu da unutmamışıq ki, Ə.Kərimli "Milli Şura"nın mitinqlərində hər zaman Silahlı Qüvvələrimizə qarşı şər-böhtanlar yağdırır, üstəlik, onun sözçülərindən biri hesab edilən Gültəkin Hacıbəyli aprel müharibəsi zamanı istifadə edilən ən müasir hərbi texnikamızı, silah-sursatlarımızı "sınıq və yararsız" adlandırmışdı. Üstəlik, azad edilmiş ərazilərimizin bu gün də ermənilərin nəzarəti altında qaldığını iddia etmişdi. Əlbəttə ki, bayaq da qeyd etdiyimiz kimi, bu, heç bir təsadüf sayıla bilməz!

Həm də, ona görə təsadüf sayıla bilməz ki, istər Ə.Kərimlinin, istər G.Hacıbəylinin bənzər şər-böhtanları dərhal Ermənistan KİV-lərinin manşetlərinə çıxarılıb. Bu gün isə, məhz işğalçı Ermənistan hakimiyyətinin başçısı N.Paşinyanın məlum və sərsəm bəyanatına dəstək olaraq, Q.Zahid Azərbaycan Ordusunun əleyhinə canlı yayım hazırlayıb, "hazır halvanı" qoyur erməni aşnalarının ağzına ki, bəs "qorxmayın, hürkməyin, siz o tərəfdən işinizi aparın, biz də bu tərəfdən sizə dəstək olacağıq" və s. Misal üçün, onun efirinə çıxan öyrədilmiş şəxslər, iddia edirlər ki, guya "aprel müharibəsində Seysulan zəfəri olmayıb" və hətta hərbçilərimiz "böyük itkilərlə" geri çəkilib və s. Bax, budur erməniyə işləmək, agentlik etmək, erməni işğalına, təcavüzünə altdan-altdan dəstək vermək və bu vasitə ilə erməni pulunu həzmi-rabeədən keçirib, üzərindən də rahatca su içmək. Amma ortada nə fakt var, nə də sübut. Əksinə, ortada düşmən əlinə verilən "bayraq" var və yəqin ki, müvafiq qurumlar birbaşa xəyanət hesab edilən belə addımların qarşısını mütləq alacaq!



### Ədalətin hökmü olmalıdır!

Nəticədə isə, N.Paşinyan və Q.Zahid arasındakı bənzərlikdən və hətta qardaşlıqdan bəhs edərək, qeyd etmək istərdim ki, bu qardaşlığın tellərini daha da möhkəmləndirən AXCP sədri Ə.Kərimli və onun ətrafı amilini də heç vaxt unutmamalıyıq və ədalət öz sözünü deməlidir. Ədalətin hökmü isə budur - işğal altındakı ərazilərimiz qısa müddətdə erməni təcavüzkarlarının əlindən xilas olduqdan, körpələrimizin, qocalarımızın, qadınlarımızın qanına susayan daşnak cinayətkarları öz haqlı cəzalarını aldıqdan sonra növbə, məhz bu xəyanətkarların olmalıdır. Millətinə, dövlətinə, xalqına, milli ruhuna erməni pulu müqabilində şərəf və ləyaqətlərini satan antimilli xainlər mütləq və mütləq cavab verməlidirlər!

*Rövşən NURƏDDİNOĞLU*

---



İLHAM

# Dəli Domrullar Göy Göldə və...

***Yəqin ki, çoxlarımız "Dədə Qorqud" dastanının qəhrəmanlarından biri olan Dəli Domrulun əlləm-qəlləm əməllərindən, ağlına deyil, daha çox qolunun gücünə arxalanıb, insanlarla zor dilində danışması haqda oxumusunuz. Bilməyənlər üçün xatırladım ki, "Dədə Qorqud" dastanının 12 boyundan birinin əsas qəhrəmanlarından olan Dəli Domrul çay üzərində körpü qurur, amacı da körpünün üzərindən keçən insanlardan pul almaq olur.***

Ancaq rüsum həddindən artıq baha olduğu üçün insanlar körpüdən istifadə etməkdən imtina edirlər. Dəli Domrul da bu müqaviməti qəbul etməyib, insanlarla cəngə çıxır. Beləliklə, körpüdən keçməyib, çayı adlayan insanları qarşı tərəfdə haqlayıb, döyür, sonra da onlardan ikiqat rüsum alır. Yəni körpüdən keçənlər təqribən 1 dinar rüsum ödəyirlərsə, körpüdən istifadə etməyib çayı keçənlər, döyülməklə yanaşı, 2 dinar rüsum ödəməli olurlar. Çox təəssüflər olsun ki, kosmos əsri olmasına baxmayaraq, bu gün də, Dəli Domrullar öz ağıllarına deyil, daha çox qollarının gücünə və pul-paralarına arxalanmaqla meydan sulayırlar. Müxtəlif tarixi abidələrə ziyarətə gedəndə, meşələrə, çaylara istirahətə üz tutanda, bu hallarla rastlaşmalı olursan. Elə götürək Göy Göl Milli Parkında baş verənləri. Burada turistlərə qarşı göstərilən anormal münasibət, qiymətlərin həddindən artıq baha olması təəssüf doğurmaqla yanaşı, mühafizəçilərin qaba hərəkətləri insanda narahatlıq yaradır. Ulu Tanrının bu millətə bəxş etdiyi sərvəti - Göy Gölü çəpərə alanlar, giriş qapısında görünüşcə və davranışca heç də Dəli Domruldan geri qalmayan muhafizəçilər təyin ediblər. Bu mühafizəçilər də "burda mənəm, Bağdadda kor xəlifə" deyib çatana çatır, çatmayana bir daş atırlar. Kasıb-imkansız bilmədən, hər kəsdən Göy Gölə baxmaq üçün 2 manat, avtomobillərin dayanacaqda saxlanması üçün isə 1 manat tələb edirlər. Olsun, bəlkə də buna göz yummaq olar. Nədən ki, Milli Parkın ərazisini abadlaşdırmaq və ya təmizliyi saxlamaq üçün maliyyə vəsaitinə ehtiyac var. Ancaq reallıq budur ki, dövlətimiz Milli Parkın ərazisinin təmizliyinə və işçilərinin aylıq maaşla təmin olunmasına hər il dövlət büdcəsindən milyonlarla manat vəsait ayırır. Digər tərəfdən, qoruğun ərazisində çoxsaylı restoran, kafe, mehmanxanalar var. Təbii ki, həmin iaşə müəssisələrindən yığılan icarə haqları hesabına Göy Gölün ərazisində təmizliyə və digər qulluq vasitələrinə nail olmaq olar. Düzdür, qiymətlər həddindən artıq baha olduğu üçün restoranlarda çörək yeyənlərin və çay içənlərin sayı azdır. Deyək ki, Kürdəmirdə və ya Şamaxının şəhər mərkəzində 50 qəpiyə olan bir çaynik çay, Göy Göl çayxanasında 5 manatdır. Yəni özbaşnalıqdır, kim necə istəyib, o cür də qiymət tətbiq edib. Maraq üçün söhbət etdiyim mühafizə dəstəsinin başçısı Atayev soyadlı birisi hikkə və əda ilə bildirdi ki, "rüsumu yuxarılar tətbiq edib və biz də qaydalara riayət edirik". Qısası, bu baş mühafizəçi bütün bəlaların bir növ Ekologiya və Təbii Sərvətlər Nazirliyindən gəldiyinə işarə vurdu. Təbii ki, mühafizəçi buyuruq quludur. Ağa deyir sür dərəyə, o da sağına-soluna baxmadan, ağanın dediyini edir. Amma vicdan məsələsi də var. Yaşlı, imkansız, kasıb qadın və ya kişi, adı dillər əzbəri olan Göy Gölə baxmağa gəlirsə ona mütləq şərait və imkan yaradılmalıdır. Elə gözümüzün qarşısında bir türk ailəsi və İmişlidən gələn bir ailə girişin pullu olması səbəbindən, Göy Gölü seyr etmədən, geri qayıtmalı oldular. Diqqətçəkən məqam ondan ibarətdir ki, gün ərzində Göy Göl Milli Parkına 12-15 min nəfər insan gəlir. Buraya 5-6 min avtomobil də əlavə etsək, deməli, gün ərzində 35-40 min manat qoruq ərazisinə girişə görə pul qazanırlar. Bunu da 30 günə vursaq, kifayət qədər ciddi rəqəm alınır. Ekologiya və Təbii Sərvətlər Nazirliyi isə fərqli şeylər və rəqəmlər açıqlayır!

Hərdən deyirəm ki, Azərbaycanın hər bir guşəsində dumduru bulaqlar, göz oxşayan meşələr, dağlar, axar çaylar, təmiz göllərimiz var, əgər kimlərsə bu çayları, meşələri və gölləri çəpərləyib, Dəli Domrulluq etsələr, bizim axırımız hara gedib çıxar? Elə götürək, bizim kəndin yaxınlığındakı Ahu dağını. Deyilənə görə, bir zamanlar Şirvanşah İbrahim öz vəzir-vəkili ilə bu dağın ətəyinə quş quşlayıb, ov ovlamağa gəlirmiş. Hərdən də, kəndin yaxınlığındakı gölə enib, balıq tuturmuş. Müəmmalı məsələlər fonunda yanaşsaq, bizim kəndlərdə də hansısa bir Dəli Domrulu peyda olub, bölgə kəndlərinin simvoluna çevrilən Ahu dağını çəpərləyə və ya Şirvanşah İbrahimin balıq tutduğu gölə əl qoya bilər. Sonrada car çəkə ki, dağa ov ovlamağa gələnlər və göldə balıq tutmaq istəyənlər, müəyyən məbləğdə pul ödəməlidirlər. Bildiyim qədər Kürdəmirdə, İsmayıllıda, Qubada, Qusarda, Lənkəranda, Şəkidə, Qaxda, Culfada, Ordubadda və digər bölgələrdə də axar çaylar, füsunkar meşələr, uca dağlar, qədim tarixə malik abidələr və ziyarətgahlar mövcuddur. Deməli, hər kəs Göy Gölü mühasirəyə alıb rüsum tətbiq edən səlahiyyət sahibləri kimi, bu yerləri çəpərləyib müəyyən məbləğdə pul tələb etməlidir? Vallahi-billahi, utancverici haldı. Müqəddəs kitabımız olan Qurani-Kərimdə deyilir: "Ey insanlar. Mən yeri və göyü sizin üçün yaratdım". Yəni bununla Ulu Tanrı gözlə görünən və insanlara xeyir, mənfəət, ruzi və bərəkət gətirə biləcək hər şeyin insanlara aid olduğunu bildirir. Ancaq biz insanlar pul qazanmaq, qaz vurub - qazan doldurmaq üçün fərqli mövqe ortaya qoyuruq. Nə yaxşı ki, humanistliyi və xeyirxahlığı ilə seçilən Prezidentimiz var. Yaxşı ki, Prezidentimizin xeyirli və gərəkli fəaliyyətini qəlbən dəyərləndirib, nəcib işlər görən Mehriban xanım Əliyeva, Leyla xanım Əliyeva kimi ictimai-siyasi xadimlərimiz var. Fikir verin, pullu-paralı, qolu zorlu Dəli Domrullar Xəzər dənizini çəpərləyib, villalar tikdirir, istirahət mərkəzləri yaradır, insanların dəniz sahilində istirahət etmək istəklərinə məhdudiyyətlər qoyurlar. Ancaq Heydər Əliyev Fondunun vitse-Prezidenti Leyla xanım Əliyeva Xəzər dənizi sahillərində insanların rahat və təhlükəsiz istirahətləri üçün hər cür şəraiti olan ictimai çimərliklərin yaradılmasına start verib. Daha doğrusu, artıq Şıxov ərazisində insanların ürəyincə olan sakit və rahat istirahət üçün ictimai çimərlik yaradılıb. Bu xeyirxah və humanist addımdan nümunə götürün, ağalar...

TƏRS BAXIŞ

# Əli Kərimli partiyasına adam axtarır

*"Klaviatura qəhrəmanı" və bloqer olan AXCP sədrinin başqa çarəsi qalmayıb*

***AXCP sədri Əli Kərimlinin son fürsətləri də əlindən çıxandan sonra, rəhbərlik etdiyi siyasi təşkilatının sıraları sürətlə seyrəlməyə başlayıb. Əbəs deyil ki, biz dəfələrlə onun sosial şəbəkələr vasitəsilə insanları AXCP-yə üzv olmağa çağırdığının, müxtəlif vədlər verdiyinin şahidləri olmuşuq. Yəqin ki, bu dəfə də eyni hal yaşanır və Ə.Kərimli yenidən "klaviatura qəhrəmanlığı" edərək, Cəmil Həsənlinin kontekstində "sevgili xalqım", "ulu millətim" şüarları altında "boy göstərib". Belə ki, sözügedən statusunun ilk rəyindəcə üzvlük anketini yerləşdirən AXCP sədrinin digər iddiası da gülünc təsir bağışlayıb. Məsələn, o bir tərəfdən, iddia edir ki, partiyasının rayonlarda kifayət qədər çox (?!) özək təşkilatları var, yaxud partiyaya hər ay yüzlərlə insan üzv yazılır, amma digər tərəfdən, hər kəsi bu siyasi təşkilata üzv olmağa çağırır. Digər sual yaranır ki, əgər Ə.Kərimli, həqiqətən də, tərəfdarlarının bu qədər çox olduğunu bəyan edirsə, niyə onun aksiyalarına, uzağı 1000-2000 nəfər adam toplaşır? Bunu siyasi güc adlandırmaq nə qədər doğru olardı?***

## AXCP yarasız siyasi dərnəyə çevrilib

Söz yox ki, zamanında, daha dəqiq desək, AXCP-nin mərhum lideri Əbülfəz Elçibəyin vaxtında, bütöv halda fəaliyyət göstərən partiya, pis-yaxşı, ölkənin siyasi gündəmində mövcudluğunu qoruyub-saxlayırdı, hətta kütləvi aksiyaları da, digər müxalifət partiyalarından seçilirdi. Lakin Ə.Kərimlinin Ə.Elçibəyə qarşı törətdiyi bəlli xəyanətlərinin ardınca, onun "Yurd" qruplaşması yaradıb, AXCP-ni beş-altı qanada parçalamasından sonra, necə deyərlər, partiyanın müxalifətdaxili nüfuzu öldü və AXCP yararsız dərnəyə çevrildi. Bu gün Ə.Kərimlinin sədri olduğu AXCP ictimai rəyə məhz yararsız dərnək təsirindən başqa heç bir təsir bağışlamır.

Bu arada, onu da xatırlatmaq olar ki, əgər Ə.Kərimli iddia edirsə ki, o, Xalq Cəbhəsi Partiyasının sədridir və s. bu zaman o dərindən yanılır. Çünki ən azı, ölkədə bir neçə Xalq Cəbhəsi Partiyası fəaliyyət göstərir. Misal üçün, Razi Nurullayevin sədri olduğu alternativ AXCP, Mirmahmud Mirəlioğlunun sədri olduğu və klassik adlandırdığı Xalq Cəbhəsi, ya da Qüdrət Həsənquliyevin sədri olduğu Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası. Əgər nəzərə alsaq ki, hazırda Xalq Cəbhəsi Partiyası şinelindən çıxmış insanlar digər adlar altında siyasi partiyalar qurublar, onda nəyin-necə olduğunu tam çılpaqlığı ilə görmüş olarıq.



## BAXCP: "Onlar üçün fərqi yoxdur Əli olsun, Məmməd olsun, yaxud Fatmanisə, ya da Tükəzban..."

Yeri gəlmişkən, BAXCP sədrinin müavini, politoloq Elçin Mirzəbəylinin mövzu ilə bağlı mətbuata verdiyi açıqlaması özündə bir neçə maraqdoğurucu faktları əks etdirməkdədir. Xüsusilə, Ə.Kərimlinin iddia etdiyi kimi, bütün xalq cəbhələrinə rəhbərlik etməsi məsələsinə münasibətini bildirən E.Mirzəbəyli belə bir nəticə çıxarır ki, bu şəxs, yəni Ə.Kərimli AXCP-nin heç bir qanadına rəhbərlik etmir: "Əli Kərimli çox güman ki, sosial şəbəkələrdə, əksər hallarda xaricdən idarə olunan səhifələrdəki trolları nəzərdə tutur.

Qeyd edək ki, hazırda trolların klonlaşdırılması ilə bağlı xüsusi proqramlar var. Bu robot-proqramların vasitəsilə bir neçə dəqiqənin içərisində yüzlərlə profil açmaq, hədəfə alınan regionun xüsusiyyətlərinə və reallıqlarına uyğun virtual "vətəndaşlar" yaratmaq mümkündür. Belə proqramlardan, əsasən, ayrı-ayrı ölkələrin xüsusi xidmət orqanları istifadə edirlər. O ki qaldı Ə.Kərimlinin siyasi biznes strukturunun insan potensialına, belə potensial, nəinki yoxdur, heç olması da mümkün deyil. Hətta hansısa narazı insanların bu və ya digər şəkildə öz ürəklərini boşaltmaq üçün Kərimlinin pafoslu, arqumentdən uzaq emosional boşboğazlıqlarına münasibət bildirməsi mümkündür. Amma bu anlama gəlmir ki, həmin şəxslər, onu bir siyasətçi kimi qəbul edirlər. Həmin şəxslər narazılıqların dilə gətirildiyi istənilən virtual məkanda aktivdirlər. Onlar üçün fərqi yoxdur Əli olsun, Məmməd olsun, yaxud Fatmanisə, ya da Tükəzban... Mən daha öncə, klonlaşdırma proqramlarından söz açdım. Düşünürəm ki, bu, artıq öz ömrünü başa vurmuş və hətta Yaxın Şərqdə, Aralıq dənizi hövzəsində belə effektivliyini itirmiş siyasi texnologiyadır. Ə.Kərimlinin "Facebook" Partiyası yalnız virtual məkanda keçirilən "aksiyalar"da görünə bilər".

## "Kərimli, olsa-olsa, AXCP-nin lələyinə rəhbərlik edə bilər"

"Tövsiyə edərdim ki, Ə.Kərimli Mark Zukerberqə müraciət edib "partiyasını" qeydə aldırsın" deyən BAXCP-nin sədr müavini, əlavə edib ki, onun siyasi iddiasını təmin edə biləcəyi yeganə məkan "Facebook"dur: "Kərimli AXCP-nin heç bir qanadına rəhbərlik eləmir. Əgər qanadı olsaydı, öz potensialını dəfələrlə üstələyən hikkəsi ilə, hətta tək qanadla da uçmağa cəhd göstərərdi. Kərimli, olsa-olsa, AXCP-nin lələyinə rəhbərlik edə bilər. Bir az da müasir informasiya və kommunikasiya texnologiyalarını nəzərə alsaq, Kərimlini AXCP-nin klaviaturasının lideri kimi təqdim etmək mümkündür".

Görünən isə budur ki, elə E.Mirzəbəylinin mediaya verdiyi açıqlamasından Ə.Kərimlinin, sadəcə, polyaçilik etməsi aydın şəkildə görünür. İnformasiya texnologiyalarının müasir zamanda təqdim etdiyi bütün vasitələrindən maksimum qaydada yararlanan AXCP sədri bu minvalla özünü həm ictimai rəyə, həm də xaricdəki agentura başçılarına "müxalifət lideri" olaraq sırıyır. Amma bunun da bir gün üstü tam açıldıqdan sonra, hətta öz saxtakar "liderliyini" qorumaq məqsədi ilə küçələrə adam çıxarmaq cəhdindən sonra məlum olacaq ki, Ə.Kərimlinin ətrafında uzağı 1000-2000 nəfərdən artıq adam olmayacaq. Bütün bunlar isə onun pafoslarının, yalanlarının, boş vədlərinin növbəti ifşası və iflası kimi yaddaşlarda qalacaq. Necə ki, hazırda da eyni hal müşahidə olunmaqdadır.

***Rövşən RƏSULOV***

## DİN: Yol qəzalarında 4 nəfər ölüb



Ötən gün törədilmiş 21 cinayətin üstü respublikanın daxili işlər orqanları tərəfindən "isti izlər"lə açılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən SİA-ya verilən məlumatına görə, əvvəlki dövrlərdən bağlı qalmış doqquz cinayətin açılması təmin olunub. Axtarışda olduğuna görə ümumilikdə 27 nəfər, o cümlədən borclu şəxs qismində axtarılan 14 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib. Respublikanın avtomobil yollarında baş vermiş dörd ağır yol-nəqliyyat hadisəsi nəticəsində 4 nəfər ölüb. Daxili işlər orqanları əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklə əlaqəli 12 fakt müəyyənləşdirilib. Cinayət törətməkdə şübhəli bilinən 29 nəfər saxlanılıb.



**Təhmasib Novruzov**

# Axsaq dünyanın kar-kor Paşinyanı

***Bu məşhur zərb-məsəli Azərbaycanda yaşayan hər kəs bilir. Hətta ermənilər də bir vaxtlar bizim bu zərb-məsəli elə bizim öz dilimizdə teztez işlədərdilər: "Axsaq atın kor nalbəndi!.." İşgördürən birinin bacarıqsız bir adama iş gördürməsini məhz bu zərb-məsəllə bədiiləşdirir xalqımız. İndi türk dünyasını, ümumən islam aləmini endirmək, özünün vassalına çevirmək uğrunda, gecə-gündüz baş sındıran Qərb dünyası o günə qalıb ki, heç bir etnik mənşəyi olmayan, türklərin hesabına özlərini millət kimi dünyanın gözünə soxan qaraçı bir tayfanın əli ilə istəklərini reallaşdırmağa çalışırlar.***

Kimsə məni qınamasın. Son vaxtlar baş verənləri izləyib, analiz etdikcə, Qərb dünyasının bu açıq-aşkar erməni sevgisinə başqa cür ad vermək mümkün olmur. Yəni kommunist ideologiyasının banisi Karl Marksın təbirincə desək, indiki sivilizasiyanın ən möhtəşəm tarixini yaradan (eyni zamanda, yaratdığı möhtəşəm tarixi yazmağa ən tənbəl xalq olan - bunu da K.Marks cənabları buyurub) bir xalqın yenidən toparlanıb, özünə qayıtmasından əndişə edən Qərb dövlətləri, bu əndişədən özlərini qorumaq naminə, hər vasitəyə əl atırlar ki, erməni-hay sevgisinin də kökündə, məhz bu məqam dayanır. Dünənə kimi, Ermənistan adlanan ölkəni SSRİ-nin varisi Rusiyanın forpostu kimi tanıyırdıq. Qərb dünyası düşünüb-daşınıb, bu qaraçı dövləti rusların əlindən qoparmaq üçün ruspərəst Koçaryanı, Sarkisyanı sıradan çıxardı və "demokrat" adı ilə Paşinyana dəstək verib, onu gətirdi hakimiyyətə. Çox əcəb.Bizim nə dərdimizə qalıb Ermənistanda kim kimi hakimiyyətdən salır, kim kimi hakimiyyətə gətirir? Bizim dərdimizə bircə o qalıb ki, bu ölkəyə, nəhayət, bir ağıllı-başlı rəhbər gələ, regionda dinc-yanaşı yaşamağın vacibliyini anlaya, bunun üçün yeni düşüncə ortaya qoya. Amma hardan! Rusun axsaq ayısının qunduzlu bal yığanları Koçaryan-Sarkisyan cütlüyünü yıxıb, kar-kor nalbəndi - Paşinyanı liderlik qoltuğunda oturdan axsaq Qərb dünyası gərəkirdi vassallarını başa salsınlar ki, Qafqazda sülh yaratmaq lazımdı, yoxsa burda savaş yenidən başlarsa, dünya savaşına çevrilə bilər. Di gəl, Paşinyanın açıq-aşkar Qafqazı yenidən qana, qadaya sürükləməsi müqabilində dünya yenə susur, hələ bəzi hallarda ona müxtəlif formatlı dəstək də verir. Məsələn, BMT Təhlükəsizlik Şurası qəbul etdiyi dörd məlum Qətnamədə, digər beynəlxalq təşkilatların qəbul etdikləri çoxsaylı sənədlərdə Ermənistanı işğalçı kimi, Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımasına rəğmən, bu "demokrat" gədə gəlib Azərbaycanın ərazisində, Xankəndində çıxış edib deyir ki, Qarabağ Ermənistanın ərazisidir və onu heç kim bizdən ala bilməz. Belə çıxır ki, Qərbin bu nalbəndinin təkcə qulağı kar, gözü kor deyil, həm də ağlı başında olmayan sərsəmdir. Yoxsa bu qədər beynəlxalq sənədlərdə təsbit olunan bir həqiqəti özü görməsə də, eşitməsə də, ola bilməz ki, görüb-eşidənlər ona deməsinlər. Deyilibsə, bilirsə, belə bir bəyanatla çıxış edirsə, o zaman onu dəli, gic adlandırmaqdan savayı bir söz tapa bilmirəm. Burası bəlli! Bəs dünyada guya demokratiyanı, insan haqlarını, sülhü qoruduğunu bağıran dünya gücləri, xüsusilə, münaqişəni tənzimləmək missiyasını üzərinə götürmüş ATƏT-in Minsk Qrupunun həmsədr dövlətləri niyə belə sərsəm bəyanatlara seyrçi münasibətlə yanaşırlar? Budur Qərbin bizlərə zorla sırımaq istədiyi demokratiya, insan haqları? Bəyəm, otuz ilə yaxındır ki, yurdundan, ev-eşiyindən didərgin düşmüş bir milyondan artıq insanın adi ata-baba yurdunda yaşamaq hüquqları Qərbin maraqlarından aşağıdırmı? Belədə kimə lazımdı onların demokratiya ixracı? Elə Azərbaycanda da yetişdirməyə çalışdıqları "demokrat"ların siyasi fəaliyyətlərini izlədikcə, orda da yuxarıda dediyimiz anti-türk fəaliyyətin izlərini görməmək mümkün deyil. Bizim sosial şəbəkələrdən çıxmayan bəzi demokratlarımızın (oxu: dəməkratlarımızın) əqidədaşları Paşinyanın belə sərsəmləmələrinə heç bir reaksiya verməmələri bu fikrimizin həqiqət olduğuna ən bariz nümunədir. Görünən odur ki, Qərb dünyası Azərbaycan türkünü endirmək üçün həm erməni siyasilərdən, nə yazıqlar ki, həm də, ən azı sənədinə əsasən, Azərbaycan türklərindən ibarət komanda formalaşdırır. Yəni bu axsaq atın kar-kor nalbəndləri təkcə düşmən içərisində hazırlanmır, həm də öz içimizdə formalaşdırılır. Bizə isə qalır bu niyyəti anlayıb da, istər içimizdəki olsun, istər kənarda, bu kar-kor nalbəndləri axsaq at sahiblərinin tövləsindən çıxmalarına imkan verməyək. ALLAH BU YOLDA BİZƏ YAR OLSUN, AMİN DEYƏN DİLLƏR VAR OLSUN!!

# İnsan hüquqlarının müdafiəsinə dair tədbirlər




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

***Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsində təsbit edilmişdir ki, insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir.***

Bütövlükdə, iqtisadiyyatın, xüsusilə də, sosial sferanın inkişafına istiqamətlənmiş siyasət insan hüquqlarının səmərəli təmin edilməsində böyük əhəmiyyət daşıyır.

Ölkəmizdə davamlı iqtisadi inkişaf proseslərinin həyata keçirilməsi, habelə, sosial infrastruktur layihələrinin icrasının davam etdirilməsi məqsədilə ardıcıl işlər görülmüş, dövlət idarəçiliyi sistemində bürokratik əngəllərin, korrupsiya hallarının və rüşvətxorluğun qarşısının alınması, dövlət-vətəndaş münasibətlərinin möhkəmlənməsi üzrə tədbirlər davam etdirilmişdir.

Dövlət tərəfindən ayrılan güzəştli kreditlər nəticəsində yeni istehsal və xidmət müəssisələri təşkil olunmuşdur.

Sosial infrastrukturun yaradılması, yenidən qurulması və bərpası davam etdirilmiş, sosial müdafiə obyekləri, yeni məktəb və uşaq bağçaları inşa olunmuş və ya əsaslı təmir edilmiş, tibb müəssisələri, olimpiya-idman kompleksləri tikilib istifadəyə verilmiş, yeni avtomobil yolları salınmış, istirahət-mehmanxana kompleksləri yaradılmışdır.

Bütün dünyada hökm sürən böhranlı vəziyyətdə dövlət büdcəsində bəzi istiqamətlər üzrə baş verən azalmalar başadüşüləndir. Lakin təqdirəlayiq haldır ki, xərclərin azaldılması qayğıya ehtiyacı olan əhali qruplarının dostəklənməsinə ünvanlanmış sosial proqram və layihələrin davamlılığına mənfi təsir etməmişdir. Prezident İlham Əliyevin dediyi kimi: "...2016-cı ildə də nəzərdə tutulmuş bütün proqramlar icra olunacaq..."

Qeyd edilənlərlə yanaşı, sosial yönümlü bazar iqtisadiyyatının inkişaf etdirilməsi, azad sahibkarlığın inkişafına real təminatlar verilməsi, habelə, münbit biznes mühitinin yaradılması məqsədilə, orta və kiçik sahibkarlıq subyektlərinə gömrük və vergi güzəştlərinin tətbiqi, bu sahədə şəffaflığın artırılması, inhisarçılığa və haqsız rəqabətə qarşı mübarizənin gücləndirilməsi, bu tələbləri pozan şəxslərə qarşı tədbirlər görülməsi kimi məsələlər diqqətdə saxlanılmışdır.

2015-ci ilin 1 noyabr tarixində Azərbaycan Respublikasının Milli Məclisinə keçirilmiş seçkilər respublikamızın hüquqi-demokratik dövlət quruculuğu, insan hüquq və azadlıqlarının təmin edilməsi, idarəetmənin cəmiyyətimizin daha da demokratikləşməsi, milli qanunvericiliyin və seçki texnologiyalarının inkişafı, milli dövlətçilik ənənələrinin möhkəmləndirilməsi prinsiplərinə sadiq olduğunu bir daha təsdiqləmişdir. Seçkilər, bütövlükdə, demokratik, şəffaf və ədalətli şəraitdə keçirilmişdir.

Azərbaycan beynəlxalq səviyyədə sülh və sabitliyin qorunub-saxlanılması naminə öz səylərini əsirgəməmişdir. Prezident İlham Əliyevin "Böyük iyirmilik" ölkələrinin Antaliya Sammitində dünya liderləri ilə birlikdə müasir dövrün ən aktual məsələlərinin müzakirələrində yaxından iştirakı, habelə, çıxışı ölkəmizin beynəlxalq aləmdə nüfuzunun getdikcə artmasını sübut edən mühüm amillərdən olmaqla yanaşı, dünya miqyasında ölkəmizə verilən önəmin daha bir göstəricisidir.

Bakıda ölkə Prezidentinin iştirakı ilə bir çox ölkələrin dövlət və hökumət nümayəndələrinin, nüfuzlu siyasi, ictimai və elm xadimlərinin də qatıldığı III Qlobal Açıq Cəmiyyətlər Forumunun, habelə, III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçirilməsi, ölkəmizin də böyük uğurlar qazandığı Birinci Avropa Oyunlarının təşkil edilməsi, həmçinin, şahmat üzrə Dünya Kubokunun keçirilməsi respublikamızın bütün dünyada böyük nüfuza malik olduğunu sübut edir.

Qeyd edilən nailiyyətlərlə yanaşı, ölkəmizin həyatında ağır itkilər də olmuşdur. 2015-ci il dekabrın 4-də Dövlət Neft Şirkətinin "Günəşli" yatağının 10 saylı stasionar dərin dəniz özülündə, güclü qasırğanın doğurduğu qəza nəticəsində baş vermiş və çoxsaylı insan tələfatı ilə nəticələnmiş faciə böyük kədər və ürək ağrısı ilə qarşılanmışdır.

Respublika Prezidentinin Sərəncamına əsasən, bütün respublika ərazisində matəm elan edilməsi, Xəzər dənizində itkin düşənlərin axtarışı və xilas edilməsi üzrə geniş tədbirlərin görülməsi, həlak olmuş və itkin düşmüş neftçilərin ailələrinə dövlət səviyyəsində maddi dəstək verilməsi bir çox problemlərinin həll edilməsi istiqamətində görülmüş işlər həmin ailələrin üzləşdiyi ağır dərdi müəyyən dərəcədə azaltmışdır.

Əhalinin bütün təbəqələrindən ən müxtəlif məsələlərə və hüquq pozuntularına dair, davamlı olaraq, çoxsaylı müraciətlər alan cəmiyyətin, onun ayrı-ayrı fərdlərinin, habelə, əhali təbəqələrinin ümumi vəziyyətinin güzgüsü olan Azərbaycan Respublikasının ilk İnsan Hüquqları üzrə Müvəkkili dövlət qurumları, qeyri-hökumət təşkilatları, kütləvi informasiya vasitələri və icmalarla, habelə, beynəlxalq qurumlarla səmərəli əməkdaşlıq şəraitində fəaliyyət göstərmişdir.

Ölkəmizin Konstitusiyasında və tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş, dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxslər tərəfindən pozulan insan hüquqları və azadlıqlarının bərpa edilməsi, habelə, insan hüquqlarının pozulmasının qarşısının alınması istiqamətində fəaliyyət göstərən Müvəkkil insan hüquqlarının məhkəmədənkənar müdafiəsi məqsədi ilə davamlı tədbirlər həyata keçirmişdir.

İnsan hüquqlarının müdafiəsini, pozulmuş insan hüquq və azadlıqlarını təmin edən, mövcud hüquq-müdafiə vasitələrini tamamlayan, səlahiyyət dairəsi və funksiyaları Konstitusiya Qanunu ilə müəyyən edilən Müvəkkil öz fəaliyyətini müstəqillik, aşkarlıq, şnffaflıq, qanunçuluq, ədalət və qərəzsizlik prinsipləri əsasında qurmuşdur.

Müvəkkil insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsində ciddi maneə olan süründürməçiliyə, bürokratik əngəllərə, məmur özbaşınalığına, vətəndaşların müraciətlərinə və problemlərinə laqeyd münasibətinə qarşı kəsərli tədbirlər görmüşdür.

Müraciətlər üzrə əhatəli iş aparılmış və pozulmuş hüquqların bərpası istiqamətində tədbirlər görülmüşdür.

Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, hüquqi şəxslərin hüquqlarının pozulmasına dair şikayətlərə baxılmış, icraata qəbul edilmiş fərdi və kollektiv şikayətlər araşdırılmış və bir çoxu müsbət həll olunmuşdur.

Müvəkkil və onun tapşırığı ilə aparatın əməkdaşları respublikanın müxtəlif yerlərində əhali ilə müntəzəm görüşlər, habelə, cəzaçəkmə müəssisələrinə, istintaq təcridxanalarına, müvəqqəti saxlanılma yerlərinə, hərbi hissələrə, uşaq evlərinə, internatlara, məcburi köçkünlərin məskunlaşdıqları qəsəbələrə, habelə, səhiyyə, təhsil, əhalinin sosial müdafiəsi müəssisələrinə baxışlar keçirilmiş, qəbullar təşkil edilmiş, zəruri izahat və məsləhət işi aparılmış, insan hüquqlarının müdafiəsi məqsədilə tədbirlər görülmüşdür.

İnsan hüquqlarının təmin edilməsi sahəsində aşkar edilmiş və narahatlıq doğuran bir çox hallar dövlət orqanları ilə əməkdaşlıqda öz həllini tapmış və pozulmuş hüquqlar bərpa olunmuşdur.

Müvəkkilin fəaliyyəti dövründə onun ünvanına, ümumilikdə, 130.010, 2015-ci ildə isə 15.320 müraciət daxil olunmuşdur ki, bu da 2014-cü illə müqayisədə 16,5% çoxdur.

Müraciətlərin 72,6%-i şikayətlərdən, 27,4%-i isə ərizələrdən ibarət olmuşdur.

Bu müraciətlər sırasında mənzil problemləri, sosial təminat hüququ, əmək hüququ, məhkəmə qərarlarının icrası və müraciət etmək hüququ ilə bağlı məsələlər çoxluq təşkil etmişdir.

> İnsan hüquqlarının müdafiəsini, pozulmuş insan hüquq və azadlıqlarını təmin edən, mövcud hüquq-müdafiə vasitələrini tamamlayan, səlahiyyət dairəsi və funksiyaları Konstitusiya Qanunu ilə müəyyən edilən Müvəkkil öz fəaliyyətini müstəqillik, aşkarlıq, şnffaflıq, qanunçuluq, ədalət və qərəzsizlik prinsipləri əsasında qurmuşdur. Müvəkkil insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsində ciddi maneə olan süründürməçiliyə, bürokratik əngəllərə, məmur özbaşınalığına, vətəndaşların müraciətlərinə və problemlərinə laqeyd münasibətinə qarşı kəsərli tədbirlər görmüşdür




**VAHİD ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***

səs

Son səhifə                8 avqust


## Azərbaycanda bayram namazı avqustun 12-də qılınacaq

Azərbaycanda avqustun 12-də bütün məscidlərdə Qurban bayramı namazı qılınacaq. SİA-nın məlumatına görə, bayram namazı avqustun 12-də saat 08:00-da Bakının Əjdərbəy məscidində, saat 09:00-da isə Təzəpir məscidində qılınacaq. Bayram namazında Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadənin də iştirak edəcəyi gözlənilir.

## Yerkökü və qarğıdalı dişləri təmiz saxlayır



Həkimlər "sağlamlıq ağız boşluğundan başlayır", - deyirlər. Ağappaq və bəyaz dişlərə sahib olmaq isə hər kəsin arzusudur. Ona görə də qidalanmadan sonra hər dəfə dişlər fırçalanmalıdır. Bunun vaxtında edilməməsi karies və diş əti xəstəliklərinə səbəb ola bilər.

Xəzər Dəniz Gəmiçiliyinin 1 nömrəli Dənizçilər Klinikasının aparıcı mütəxəssisi Adıgözəl Məmmədov AZƏRTAC-a deyib: "Yeməkdən dərhal sonra dişləri fırçalamaq məsləhət görülmür, çünki bu zaman qidada olan maddələr ağızda dağılır və dişlərin zəifləməsinə səbəb olur. Fırçalama prosesinə yeməkdən bir saat sonra başlamaq məsləhətdir. Diş məcununu suda islatmaq lazım deyil, çünki bu zaman məcun təsirini itirir. Məcundan ləbləbi dənəsi miqdarında istifadə edilməlidir. Dişlərə müxtəlif üsullarla qulluq göstərmək olar. Təbii diş təmizləyicisi hesab edilən almadan başqa yeməkarası fasilə zamanı yerkökü və partlamış qarğıdalı yemək dişləri təmiz saxlayır".

Onun dediyinə görə, dişlərin əsas düşməni şokolad yox, başqa şirniyyatlardır: "Meyvə şirələrinin tərkibindəki turşular da dişlərin vaxtından əvvəl sıradan çıxmasına səbəb olur. Əgər meyvə şirələri və digər şirniyyat məhsulları qəbul edilibsə, ayran və pendir kimi ağartı məhsulları yeyərək qidalanmağa yekun vurmaq lazımdır, çünki onlar turşuların zərərli təsirlərinin qarşısını almaq qabiliyyətinə malikdir. Pendir və ayran dişlər üçün müdafiə vasitəsi rolu oynayır".

## "Nar"-ın korporativ müştərisi ol, sərfəli tariflərdən yararlan!

Biznes tərəfdaşlarının sayını ildən-ilə sürətlə artıran və sahibkarların tələblərini hər zaman nəzərə alan "Nar", korporativ müştəriləri üçün sərfəli qiymətlərlə yeni təklifl ər təqdim etməkdə davam edir. Mobil operator yüksəkkeyfiyyətli şəbəkə, sürətli və kəsintisiz internet xidmətləri, tarif paketləri ilə sahibkarlara sərfəli əməkdaşlıq təklif edir. "Nar"-ın korporativ müştərisi olmaqla biznes sahibləri əlverişli şərtlərlə yüksəksürətli internetə çıxış imkanı verən "Nar MiFi" və "Nar Wi-Fi" cihazları, eləcə də data nömrələr əldə edə bilərlər. Qeyd edək ki, "Nar MiFi" abunəçilərə olduqları yerdən asılı olmayaraq hər zaman onlayn olmağa və interneti ətrafdakılarla paylaşmağa imkan verir. Eləcə də, cihazın kiçik ölçüləri və yüngüllüyü onun daşınmasını asanlaşdırır. İstənilən məkanda sərfəli qiymətə yüksəksürətli internetə çıxış imkanı verən "Nar Wi-Fi" internet paylayıcısı da abunəçilərə qısa müddətdə 4G şəbəkəsi ilə əhatə olunmağa imkan verir. Bu avadanlıq sayəsində 30-dan artıq cihaz eyni anda sərfəli qiymətə yüksək sürətli internetə (LTE / 4G) çıxış əldə edir.

Hər bir müştərinin ehtiyacını nəzərə alan "Nar", biznes sahiblərinə ən optimal tarif paketləri təklif edir. Korporativ müştərilər üçün internet və rominq paketləri və beynəlxalq zənglər üçün bonuslar təqdim edilir.

Qeyd edək ki, "Nar" yeni təkliflərini bölüşmək və əlaqələrinin gücləndirmək məqsədilə korporatov müştəriləri ilə növbəti görüşünü təşkil edib. Görüşdə mobil operatorun əməkdaşlıq etdiyi 100-ə yaxın şirkətdən 250-yə qədər korporativ müştəri iştirak edib. Yeni imkanlar barədə məlumat verildikdən sonra iştirakçılar birlikdə film izləyiblər. Filmdən sonra isə lotoreya keçirilib və qalib müştərilərə "Nar" tərəfindən xüsusi hədiyyələr verilib. Korporativ tərəfdaşlıq üçün 777 telefon nömrəsi və ya business-nar@azerfon.az elektron poçt ünvanı vasitəsilə əlaqə saxlamaq olar. Təkliflərdən yalnız sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və ya fiziki şəxslər yararlana bilərlər.

## "Qarabağ" APOEL-ə də futbol dərsi keçdi!




Futbol üzrə UEFA Çempionlar Liqasının 2019-2020-ci il mövsümünün üçüncü təsnifat mərhələsi çərçivəsində keçirilən APOEL-"Qarabağ" oyunu komandamızın 2:1 hesablı qələbəsi ilə yekunlaşıb. Bir çoxları bu qarşılaşmada Kipr təmsilçisini favorit saysa da, Ağdam klubu layiqli qələbə qazanaraq vətənə qayıdıb. Qeyd edək ki, cavab matçı bir həftə sonra Tofiq Bəhramov adına Respublika Stadionunda keçiriləcək.

Xatırladaq ki, Qurban Qurbanovun rəhbərlik etdiyi kollektiv birinci təsnifat mərhələsində Albaniya çempionu "Partizani"ni mübarizədən kənarlaşdırıb. Tiranada baş tutan ilk oyunda hesab açılmasa da, Bakıdakı oyunda Filip Ozobiç və Dani Kintananın qolları "Qarabağ"ı növbəti mərhələyə çıxarıb.

Ağdam təmsilçisi ikinci təsnifat mərhələsində İrlandiyanın "Dundalk" komandasından güclü olub. "Oriel Park" stadionunda keçirilən ilk qarşılaşmada 1:1 hesablı heç-heçə qeydə alınıb. Oyunda hesabı Mahir Emreli açsa da, Patrik Hoban bərabərlik topunu vurub. "Dalğa Arena"da keçirilən cavab matçı isə Azərbaycan çempionunun 3:0 hesablı qələbəsi ilə yekunlaşıb. "Qarabağ" Xayme Romeronun dublu və Ailton Silvanın vurduğu qolla rəqibini darmadağın edib. Mübarizəyə II təsnifat mərhələsindən başlayan Kipr çempionu isə Monteneqronun "Sutyeska" komandasını mübarizədən kənarlaşdırıb (1:0, 3:0).



## Alveşin təqdimatına 45 min azarkeş gəldi

Braziliyanın "San Paulo" klubu yeni transferi Dani Alveşi ictimaiyyətə təqdim edib. Klubun rəsmi saytında yer alan məlumata görə, təqdimat mərasiminə 45 azarkeş gəlib. 37 yaşlı müdafiəçi diz çökərək klubu emblemini öpüb.

Tədbirdə Braziliya millisinin və "San Paulo"nun keçmiş futbolçusu Kaka da iştirak edib. Alveşə yeni klubunda geyinəcəyi 10 nömrəli formanı da məhz Kaka təqdim edib. Qeyd edək ki, Avropada "Sevilya", "Barselona", "Yuventus" və PSJ-də çıxış etmiş Alveş "San Paulo" ilə 2022-ci ilin dekabrına qədər müqavilə imzalayıb.

## "Anderlext" forması geyindiyi üçün Lukaku 435 min avro cərimələndi



"Mançester Yunayted" futbolçusu Romelu Lukakunu cəzalandırıb. Qol.az Britaniya mətbuatına istinadən xəbər verir ki, klub rəhbərliyi belçikalı hücumçuya icazəsiz məşq bazasını tərk etdiyi və "Anderlext"in formasını geyindiyi üçün cərimələyib. "Qırmızı şeytanlar" Lukakuya 400 min funt-sterlinq (təqirbən 435 min avro) pul cəzası verib. Qeyd edək ki, "Mançester Yunayted"dən ayrılacağı gözlənilən hücumçu ilə "İnter" və "Yuventus" yaxından maraqlanır.




## "Liverpul" Harri Uilsonu icarəyə göndərib

"Liverpul" futbolçusu Harri Uilsonu icarəyə göndərib. Klubun rəsmi saytında yer alan məlumata görə, Uels millisinin üzvü 2019/20 mövsümünü Premyer Liqanın digər təmsilçisi "Bornmut"da keçirəcək. Qeyd edək ki, "Liverpul"un yetirməsi olan 22 yaşlı yarımmüdafiəçi ötən mövsüm "Derbi Kaunti"də icarədə olub və 40 oyuna 15 qol vurub.

## "Milan"dan yeni transfer

"Milan" heyətinə daha bir futbolçu cəlb edib. İtaliya klubunun rəsmi saytında yer alan məlumata görə, "rassonyerlər" "Flamenqo"nun müdafiəçisi Leu Duarte ilə 5 illik müqavilə imzalayıb. İtalyanlar Braziliya klubuna 11 milyon avro ödəyib. Qeyd edək ki, indiyə qədər yalnız "Flamenqo"da çıxış edən 23 yaşlı futbolçu 60 oyuna çıxıb və 2 qol vurub.


**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600